DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 03 (365) / MART 2022-Cİ İL

# SUQOVUŞANDA İKİMƏRTƏBƏLİ YENİ MƏSCİDİN TƏMƏLİ QOYULUB






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 20-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində yeni tikiləcək məscidin təməlini qoyublar.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma qəsəbədə inşa olunacaq məscidin layihəsi barədə məlumat verib.

Bildirilib ki, ümumi ərazisi 0,6 hektar olan kompleksə məscid binası, köməkçi bina, dəstəmaz otağı və avtodayanacaq daxildir. İki mərtəbədən ibarət olacaq məscid binasının uzunluğu 16,8 metr, eni isə 11,2 metr təşkil edəcək. Burada kişilər və qadınlar üçün ibadət zalının olması planlaşdırılır. Layihəyə əsasən məsciddə eyni vaxtda 110 nəfərin ibadət etməsi üçün şərait yaradılacaq.

Dövlətimizin başçısı və birinci xanım məscidin təməlini qoyublar.

Qeyd edək ki, işğal dövründə vandalizmə məruz qalan mədəni-dini obyektlər sırasında İslam dini abidələri - məscidlər, türbələr və digər inanc yerləri mütləq əksəriyyət təşkil edir. Qarabağda rəsmi fəaliyyət göstərmiş 67 məscidin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. İşğaldan azad olunmuş ərazilərimizdə hazırda geniş quruculuq işləri aparılır, yeni məscidlər tikilir. Onlardan biri də Suqovuşan qəsəbəsində təməli qoyulan məsciddir.

## DÖVLƏT KOMİTƏSİ DİNİ İCMALAR ARASINDA YAZI MÜSABİQƏSİ ELAN EDİR

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99 illiyi münasibətilə "Heydər Əliyev siyasəti: tolerantlıq" mövzusunda dini icmaların üzvləri arasında yazı müsabiqəsi elan edir.

Müsabiqəyə ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, tolerantlıq mühitinin dövlət-din konsepsiyasına uyğun möhkəmləndirilməsi, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılması istiqamətində Ümummilli Lider Heydər Əliyev tərəfindən həyata keçirilən strategiyanın əhəmiyyətindən bəhs edən məqalələr göndərilə bilər. Həmçinin Azərbaycan xalqının spesifik keyfiyyəti kimi tolerantlığa, onun möhkəmləndirilməsində, beynəlxalq miqyasda təbliğ edilməsində və dünyada nümunə kimi qəbul olunmasında Heydər Əliyevin xidmətlərinə və bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilən siyasətə həsr olunmuş məqalələr qəbul olunur.

**1 .Müsabiqənin şərtləri**

- müsabiqəyə hər müəllif yalnız bir yazı təqdim edə bilər;
- yazı mövzuya uyğun olmalıdır;
- yazıya uyğun olaraq yaradıcı başlıq müəyyənləşdirilməlidir;
- yazının həcmi 8 000 (səkkiz min) işarədən artıq olmamalıdır (1,5 aralıq məsafə ilə təxminən 3-4 A4 formatlı vərəq həcmində);
- müsabiqə üçün verilmiş yazı qəzetdə çap edilərsə, qəzetin həmin sayının 1 nüsxəsi Dövlət Komitəsinə təqdim olunmalıdır;
- yazı elektron media resursunda yayımlanarsa, link yazıya əlavə edilərək, e-mail ünvanına göndərilməlidir;
- yazı təqdim edən şəxsin əlaqə vasitələri - ev və ya iş telefonu, mobil telefonu, e-mail ünvanı yazıya əlavə edilməlidir.

**2. Mükafat**

I (1 nəfər) yer – 500 AZN
II (1 nəfər) yer – 400 AZN
III yer (1 nəfər) – 300 AZN
Hər biri 100 manat olmaqla üç həvəsləndirici mükafat.

**3. Müsabiqənin müddəti: Məqalələr 2022-ci il 20 aprelədək təqdim edilməlidir.**

**Ünvan**: Bakı şəhəri, Əhməd Cavad küç., 16
**Əlaqə telefonları:** (012) 505 78 16 / (012) 505 78 19
**E-mail**: redaksiya@scwra.gov.az

# "DİNİ ETİQAD AZADLIĞI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 16, maddə 694; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddələr 171, 226, № 4, maddə 287; 1998, № 1, maddə 16; 2001, № 12, maddə 736; 2002, № 6, maddə 328, № 12, maddə 692; 2003, № 1, maddə 16; 2005, № 8, maddə 684; 2009, № 5, maddə 314, № 7, maddələr 512, 517; 2011, № 2, maddə 71, № 7, maddə 604; 2013, № 3, maddə 217, № 4, maddə 355; 2015, № 4, maddələr 364, 367, № 11, maddə 1257, № 12, maddə 1443; 2016, № 12, maddə 1985; 2017, № 6, maddə 1047; 2020, № 7, maddə 826; 2021, № 6 (I kitab), maddə 545) aşağıdakı dəyişikliklər edilsin:

1.8-ci maddə üzrə:

1.1. ikinci hissədə "təşkilat məsələlərində" sözləri "dini məsələlərdə" sözləri ilə əvəz edilsin;

1.2. üçüncü hissə üzrə:

1.2.1. birinci cümlədə "rəhbərlik edən din xadimləri müvafiq icra hakimiyyəti orqanına məlumat verilməklə Qafqaz Müsəlmanları İdarəsi" sözləri "din xadimləri Qafqaz Müsəlmanları İdarəsinə məlumat verilməklə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

1.2.2. ikinci cümlədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nümayəndəsinin" sözləri "Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələrinin və mütəxəssislərin" sözləri ilə əvəz edilsin;

1.3.yedinci hissə ləğv edilsin.

2. 9-1.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"9-1.4. Dini qurumun hüquqi ünvanı dəyişdikdə bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) 10 (on) gün müddətində məlumat verir.".

3. 11.3-cü maddə ləğv edilsin.

4. 12-ci maddə üzrə:

4.1. birinci hissənin ikinci cümləsində "qurumlar" sözü "icmalar" sözü ilə, "qurumlara dini mərkəz və idarələr tərəfindən" sözləri "icmalara bu Qanunla müəyyən olunmuş qaydada" sözləri ilə əvəz edilsin və həmin cümləyə "fəaliyyət" sözündən əvvəl "dini" sözü əlavə edilsin;

4.2. ikinci və üçüncü hissələr aşağıdakı redaksiyada verilsin:

"Dini qurumlar (dini icmalar bu maddənin üçüncü hissəsində nəzərdə tutulmuş sənədlər nəzərə alınmaqla) dövlət qeydiyyatına alınması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təsis protokolu, nizamnaməsi, habelə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər sənədlər əlavə olunmuş ərizə ilə müraciət edir.

Dini icmaların təqdim etdiyi ərizəyə onu təsis etmiş azı əlli nəfər yetkinlik yaşına çatmış şəxs və ya onların səlahiyyətli nümayəndələri, habelə vətəndaşlığı, yaşayış yeri və doğum tarixi göstərilməklə dini icmanı təsis edən şəxslərin siyahısı, şəxsiyyətlərini təsdiq edən sənədlərin surəti, dini təlimin əsasları, o cümlədən dini icmanın yaranması tarixi, onun fəaliyyətinin forma və metodları, ənənələri, ailəyə, nikaha və təhsilə münasibət, həmin icmanın üzvlərinin hüquq və vəzifələrinə qoyulan məhdudiyyətlər barədə məlumatlar əlavə edilir.";

4.3. beşinci hissədə "dini mərkəz və idarələrin vasitəsilə" sözləri "(bu Qanunun 9-1.4-cü maddəsi ilə müəyyən edilmiş hal nəzərə alınmaqla)" sözləri ilə əvəz edilsin.

5. 18-ci maddə üzrə:

5.1. dördüncü hissənin birinci cümləsinə "ianələri" sözündən sonra ", o cümlədən ianə edilmiş pul vəsaitlərini nağd və ya bank, poçt, plastik kart, elektron ödəmə sistemləri, yaxud internet vasitəsilə" sözləri əlavə edilsin;

5.2. ikinci və üçüncü cümlələr müvafiq olaraq üçüncü və dördüncü cümlələr hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İanə edilmiş pul vəsaitlərinin dini qurumlar tərəfindən qəbul edilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.".

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 25 fevral 2022-ci il

# "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 488-VIQD nömrəli Qanununun tətbiqi və "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 may tarixli 97 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 488-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Müəyyən edilsin ki:

1.1. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin üçüncü hissəsinin birinci cümləsində, 9-1.4-cü maddəsində, 12-ci maddəsinin ikinci hissəsində və 18-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 18-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 8-ci maddəsinin üçüncü hissəsinin birinci cümləsində, 9-1.4-cü maddəsində, 12-ci maddəsinin ikinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsinə uyğun olaraq, ianə edilmiş pul vəsaitlərinin dini qurumlar tərəfindən qəbul edilməsi qaydasını iki ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 488-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 may tarixli 97 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 329; 2012, № 4, maddə 294; 2013, № 8, maddə 908; 2015, № 9, maddə 987; 2017, № 6, maddə 1097; 2019, № 5, maddə 840; 2021, № 6 (I kitab), maddə 578) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə "hissəsinin ikinci cümləsində" sözləri "hissəsinin birinci cümləsində" sözləri ilə, "maddəsinin ikinci cümləsində" sözləri "maddəsində, 12-ci maddəsinin ikinci hissəsində" sözləri ilə əvəz edilsin və həmin bəndə "beşinci hissəsində" sözlərindən sonra ", 18-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsində" sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 2.1-2-ci bənd əlavə edilsin:

"2.1-2. həmin Qanunun 18-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

3.3. 2.2-ci bənddən "8-ci maddəsinin üçüncü hissəsinin birinci cümləsində," və "ikinci hissəsinin üçüncü cümləsində, üçüncü," sözləri çıxarılsın;

3.4. 2.5-1-ci bənddə "hissəsinin ikinci cümləsində" sözləri "hissəsinin birinci cümləsində" sözləri ilə, "maddəsinin ikinci cümləsində" sözləri "maddəsində, 12-ci maddəsinin ikinci hissəsində" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 11 mart 2022-ci il

# NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*Hörmətli həmvətənlər!*

*Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı və səadət arzulayıram.*

*Azərbaycan torpağında qədim köklərə malik Novruz bayramı xalqımızın mədəni sərvətlər xəzinəsində layiqli yer tutur. Ulu əcdadımızın zəngin daxili aləminin və nikbin dünyagörüşünün dolğun təcəssümü olan bu el bayramı yüzillərdən bəri varlığımızın ən dərin qatlarına nüfuz etmiş, milli özünüdərkin təşəkkülünə töhfələr vermiş, ali dəyərlərin daşıyıcısına çevrilərək insanlarımızı vahid mənəviyyat ətrafında daim bir-birinə yaxınlaşdırmışdır.*

*Tariximizin taleyüklü anlarında gələcəyə inamımızı biz, eyni zamanda, Bahar bayramının bəxş etdiyi mənəvi güc sayəsində qoruyub saxlamışıq. Qloballaşma dalğasının vüsətli dövründə Novruz ənənələrinin müqəddəs ərməğan kimi uca tutulması və bütün rəngarəngliyi ilə yaşadılması çoxəsrlik mədəni irsimizə ehtiramımızın ifadəsidir.*

*Məhz parlaq Zəfərimizin qat-qat gücləndirdiyi xoş bahar ovqatı içində, artıq ikinci ildir ki, azadlığına qovuşmuş torpaqlarımızda hazırda yüksək sürətlə genişmiqyaslı bərpa və quruculuq işləri aparılmaqdadır. Yaz ətirli bayramımız bizi daha şövqlə çalışıb indi rahat nəfəs alan bu doğma yurd yerlərini qısa müddətdə abadlaşdırmağa və öz əvvəlki dinc həyatına qaytarmağa ruhlandırır.*

*Vətənimizin ərazi bütövlüyü naminə canlarından keçmiş igid övladlarımızın xatirəsini bu bayram günlərində minnətdarlıqla yad edir, ölkənin müdafiəsində mətinliklə dayanan Azərbaycan əsgərinə təbriklərimi yetirirəm.*

*Əminəm ki, xaricdəki soydaşlarımızın bizimlə birgə azərbaycançılıq məfkurəsi işığında baharı qarşılamaları onların qəlbində yurdumuza bağlılıq hisslərini daha da möhkəmləndirəcəkdir.*

*İrəlidə bizi ümumxalq əhəmiyyətli mühüm vəzifələrin həlli gözləyir. İnanıram ki, hər birimiz yaz fəslinin yeniləşdirici ab-havası ilə həmahəng ruh yüksəkliyi və həmrəylik şəraitində qurub-yaratmaq əzmi nümayiş etdirəcək, Qarabağa böyük qayıdış planımızı uğurla gerçəkləşdirəcəyik.*

*Hamınıza bahar əhval-ruhiyyəsi arzu edirəm. Qoy bu əziz bayram hər evə, hər ocağa bol sevinc, ruzi-bərəkət və firavanlıq gətirsin!*

*Novruz bayramınız mübarək olsun!*

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 mart 2022-ci il

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ SUMQAYITDA VƏTƏNDAŞLARI QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin vətəndaşların şəhər və rayonlarda qəbulunun keçirilməsinə dair tapşırığına uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı martın 4-də Sumqayıt şəhəri və Qubadlı rayonundan olan vətəndaşları qəbul edib.

Qəbuldan öncə Ümummilli Lider Heydər Əliyevin Sumqayıt şəhərindəki abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Sumqayıt şəhərindəki Heydər Əliyev Mərkəzində baş tutan qəbul zamanı Komitənin fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, həll edilməsi araşdırma tələb edən məsələlər ilə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Sakinlər vətəndaşların bölgələrdə qəbulu ilə bağlı Azərbaycan Prezidentinin göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.



# DÖVLƏT KOMİTƏSİNDƏ RAMAZAN AYININ BAŞLAMASI İLƏ BAĞLI MÜŞAVİRƏ KEÇİRİLİB



Martın 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Ramazan ayının başlaması ilə əlaqədar müşavirə keçirilib. Müşavirədə DQİDK və tabeliyindəki qurumların, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin (Agentlik) rəhbərliyi, eləcə də Dövlət Komitəsi Mərkəzi Aparatının və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ramazan ayında planlaşdırılan tədbirlər və qarşıda duran vəzifələrdən danışaraq DQİDK-nın Mərkəzi Aparat və bölgə şöbələrinin üzərinə düşən vəzifələrə diqqət çəkib. Bildirib ki, Ramazan ayında Dövlət Komitəsinin şöbələri iş fəaliyyətini daha da gücləndirməli və bölgələrdə monitorinqlər təşkil etməlidirlər. Qafqaz Müsəlmanları İdarəsi (QMİ) tərəfindən təsdiq edilərək dərc edilən Ramazan ayının təqviminə əməl edilməsinə nəzarət prosesi də Dövlət Komitəsinin vəzifələri sırasındadır. Bu məqsədlə bölgə şöbələrinin əməkdaşları tərəfindən yerlərdə monitorinqlərin keçirilməsi labüddür.

Dini maarifləndirmə işinin gücləndirilməsinin vacibliyini vurğulayan Mübariz Qurbanlı Ramazan ayında bölgə şöbələrinin milli-mənəvi, dini dəyərlərimizin təbliği prosesində daha aktiv fəaliyyət göstərməsinin, bu sahədə tədbirlər, layihələrlə yanaşı, sosial media platformalarında fəallığın vacibliyini qeyd edib.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev QMİ-nin Qazılar Şurasının Ramazan ayı ilə bağlı Fətva qəbul etməsinin ardından Naxçıvanda Ramazan təqviminin hazırlanması ilə bağlı işlərin başlandığını qeyd edib. Bildirib ki, Muxtar Respublika ərazisində fəaliyyət göstərən dini icma sədrləri və din xadimlərinə Ramazan ayındakı ibadətlər zamanı müvafiq tövsiyələrə əməl etmələri məsləhət görülüb. Agentlik rəsmisi, həmçinin Azərbaycanın digər bölgələrində olduğu kimi Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında da inanclı şəxslərin məzhəb fərqi qoyulmadan dini ibadətlərini həyata keçirdiklərini əlavə edib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı (MDTF) direktoru Mehman İsmayılov MDTF-nin illik fəaliyyət planında Ramazan ayında icra olunacaq layihələrə xüsusi yer verildiyini bildirib. Bu ayda dini icmalarla birgə şəhid ailələrini ziyarətlər zamanı bayram sovqatı, eləcə də ərzaq alış-verişi üçün hədiyyə kartlarının təqdim ediləcəyini deyən Mehman İsmayılov belə layihələrin yardımlaşmaq kimi milli və dini adət-ənənəni yaşatmaqla yanaşı, ölkəmizdə dövlət-din münasibətlərinin möhkəmlənməsində də önəmli rol oynadığını vurğulayıb.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov təhsil müəssisəsi tərəfindən Ramazan ayında maarifləndirici videoçarxların hazırlanacağını söyləyib.

Görüləcək işlərlə bağlı təkliflərini səsləndirən DQİDK-nın sədr müavini Səyavuş Heydərov Ramazan ayında saxta təqvimlərin yayılmasının yolverilməz olduğunu, vahid Ramazan təqviminə riayət olunmasının vacibliyini xüsusi olaraq vurğulayıb.

Sonda müzakirə olunan məsələlərlə bağlı şöbə müdirlərinə müvafiq tapşırıq və tövsiyələr verilib.

# S.A.SALAHLININ "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Səyyad Adil oğlu Salahlı "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 14 yanvar 2022-ci il

# DÖVLƏT KOMİTƏSİNDƏ SƏYYAD SALAHLININ 70 İLLİK YUBİLEYİ İLƏ BAĞLI TƏDBİR KEÇİRİLİB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) sədrin birinci müavini Səyyad Salahlının 70 illik yubileyi ilə bağlı tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan Komitə sədri Mübariz Qurbanlı Səyyad Salahlı haqqında xoş arzularını bölüşməklə yanaşı, onun həyat yolundan, ictimai-siyasi fəaliyyətindən, yaradıcılığından bəhs edib. Bildirib ki, yubilyar ziyalı, prinsipial, mövqeyində sabit və yüksək mədəniyyətə, insani keyfiyyətlərə, eləcə də dərin biliklərə malik bir şəxsdir. Ulu Öndərimiz Heydər Əliyevin dövlət quruculuğu siyasətində yaxından iştirak edib, eyni zamanda Yeni Azərbaycan Partiyasının təşkilatlanmasında, ideoloji fəaliyyətində fəal rol oynayıb. Onun Milli Məclisin üzvü və diplomat olarkən gördüyü işlərə də toxunan Komitə sədri qeyd edib ki, dövlət-din münasibətlərinin inkişafında, milli-mənəvi dəyərlərin təbliği istiqamətində də xidmətləri olan Səyyad Salahlının çoxşaxəli, uğurlu fəaliyyəti Prezidentimiz İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib, bir sıra dövlət təltiflərinə layiq görülüb.

Komitə sədrinin müavinləri Səyavuş Heydərov, Gündüz İsmayılov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, şöbə müdirləri Vüqar Səlimov, Elnarə Kərimova çıxışlarında yubilyarla bağlı fikirlərini bölüşərək, Səyyad Salahlının jurnalist, siyasi xadim kimi milli dövlətçilik maraqlarımızın möhkəmlənməsinə verdiyi töhfələrdən bəhs edib və ona uğurlar arzulayıblar.

Sonda çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı tədbirin təşkili və iştirakçıların xoş sözlərinə görə təşəkkürünü bildirib.



## *Hörmətli Səyyad Aran!*

Sizi – tanınmış ictimai-siyasi xadimi və yazıçı-publisisti anadan olmağınızın 70 illiyi münasibətilə təbrik edirik.

Siz 15 yanvar 1952-ci ildə İmişli rayonunun Qaradonlu kəndində müəllim ailəsində doğulmusunuz.

1972-ci ildə o zamanki Pedoqoji İnstitunun filologiya fakültəsini bitirərək Aşağı Qaralar (İmişli) orta məktəbində əmək fəaliyyətinə başlamısınız. Hərbi xidmətdən qayıtdıqdan sonra (1973) 1990-cı ilə qədər 1 saylı İmişli şəhər orta məktəbində pedoqoji fəaliyyətinizi davam etdirmisiz. Dərs hissə müdiri, tərbiyə işləri üzrə direktor müavini, İmişli rayon XTŞ-nın müdiri vəzifələrində işləmisiniz. Sonra Bakıya gələrək əvvəl AMEA-nın "Elm" qəzetində, sonra isə "Səs" qəzetində Baş redaktorun I müavini kimi jurnalistika sahəsində çalışmısınız.

Əbədi yaradıcılığa şeirlə başlamısız. (1966) Sonra nəsr sahəsində fəaliyyət göstərmisiniz. Müxtəlif illərdə "Körpü" (Gənclik, Bakı 1983) "Soyuq Günəş" (Təbriz, Bakı 1996) "Aklanma kağıdı" ("Təmizlik kağızı" Türkiyə, İstanbul, 2010) "Sandıqda qalan muştuluq" ("Qanun" Bakı, 2012) "Sazaq" (Vektor, Bakı 2016) "Başdaşı" (Elm və təhsil, Bakı 2020) "Mezar taşı" (Zengin Yayınçılıq, İstanbul 2020) "Zaloq" (Belqrad CZΓR Јован 2020) "Доход Гейбулли", Rusiya, Ridero 2021, "Oyanma" (Təbriz, Azər-Turan 2021) "Партія в теніс у Кюдру" (Запоріжжия, Украина 2021) "İrəvana gedən yollar" (Elm və təhsil, Bakı 2021) kitablarınız çap edilmişdir. Əsərləriniz rus, fars, serb, türk, Ukrayna, erməni (sovet dövründə) alman, ingilis dillərinə tərcümə edilib.

Siz həm də 1990-2005-ci illərdə aktiv siyasətlə məşğul olmusunuz, Yeni Azərbaycan Partiyasının qurucularından birisiniz, Müstəqil Azərbaycanın I və II çağırış MM-in deputatı seçilmisiniz, 2006-2010-cu illərdə diplomatik sahədə də çalışmısınız, Türkiyənin İstanbul şəhərində Azərbaycanın Baş konsulu vəzifəsində işləmisiniz, 2009-cu ildə "İlin diplomatı" tituluna layiq görülmüsünüz.

"Qızıl qələm" media mükafatı, "Tərəqqi medalı" (2005), Beynəlxalq "Rəsul Rza" mükafatı almısınız.

Siz Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının fəxri professorusunuz. Türk dünyası mədəniyyətinə və elminə xidmətlərinizə görə həmin akademiyanın Beynəlxalq "Qızıl ulduz" ordeni ilə təltif olunmusunuz.

Əbədi tənqidin fikrinə görə Sizin yaradıcılığınız psixoloji nəsrin orijinal nümunələrindəndir. Yaradıcılığınızda zamandan da, zəmanədən də üstdə duran insandır, qəhrəmanlarınız bir qayda olaraq mənəviyyat sahibidirlər. Müstəqillik yollarında ictimai-siyasi və əbədi fəaliyyətinizi uğur və şərəflə davam etdirirsiniz.

Hörmətli Səyyad müəllim!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür, cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

# SƏYYAD ARANIN 70 İLLİYİ QEYD OLUNUB



Azərbaycan Yazıçılar Birliyində yazıçı, publisist, ictimai-siyasi xadim, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini, Əməkdar jurnalist Səyyad Aranın (Salahlı) 70 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açıq elan edən AYB katibi, yazıçı Elçin Hüseynbəyli bildirib ki, Səyyad Aran öz yaradıcılığı ilə həmişə diqqət mərkəzində olan qələm adamlarından biri kimi oxucuların rəğbətini qazanıb.

AYB-nin sədri, Xalq yazıçısı Anar yubilyarın uğurlu yaradıcılığı ilə insani keyfiyyətlərinin paralelliyi barədə öz fikirlərini bölüşüb. S.Aranın bədii əsərlərində ortaya qoyulan məsələlərin aktuallığı barədə söhbət açan Xalq yazıçısı, xüsusən, müəllifin "Təmizlik kağızı" əsəri haqqında düşüncələrini dilə gətirib.

Daha sonra Anar Səyyad Aranı AYB-nin xüsusi diplomu ilə təltif edərək yubilyara xoş arzularını bildirib.

Millət vəkili, akademik Nizami Cəfərov isə S.Aranın bədii yaradıcılığı, dil-üslub xüsusiyyətlərinin zənginliyi barədə söhbət açıb.

Daha sonra Seyran Səxavət, Vaqif Yusifli, Əsəd Cahangir, Tehran Əlişanoğlu, Nikpur Cabbarlı, Elçin İsgəndərzadə, Yunus Oğuz və Qəşəm Nəcəfzadə yubilyar barədə fikirlərini bölüşərək ona təbriklərini çatdırıblar.

Mahmut Kaşğari Fondunun rəhbəri Elxan Zal Qaraxanlı öz ürək sözlərini dilə gətirərək Səyyad Arana fondun təsis etdiyi mükafatı təqdim edib, ona həyat və yaradıcılığında uğurlar arzulayıb.

# SİYASƏTÇİ. ALİM. YAZIÇI

**Bu sözlər yetmiş yaşını qeyd etdiyimiz Səyyad Arana aiddir. Bura deputat və diplomat sözlərini də əlavə etmək olardı, amma onda başlıq çox uzun çıxardı, Səyyad 1995-2005-ci illərdə Milli Məclisin üzvü, sonra İstanbulda ölkəmizin Baş konsulu olmuş, hazırda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavinidir. 2005-ci ildə filologiya elmləri namizədi elmi dərəcəsini almışdır.**

Amma mənimçün Səyyad Aran ilk növbədə yazıçıdır. İstedadlı yazıçıdır və - bu, vacibdir - abırlı yazıçıdır. İstedadlı yazıçıların bəzilərini abırlı saymaq çətindir. Abırlı insanların bir qismi də - təəssüf ki, istedadlı deyillər.

Səyyadın abırlılığı - ömrü boyu hansı vəzifəni tutmasından, hansı mövqeyə çatmasından asılı olmayaraq özünü təvazökar, sadə, nəcib və məsuliyyətli aparmasıdır. Səyyadın yazıçı istedadını ilk dəfə çox illər öncə oxuduğum "Soyuq günəş" kitabında duydum. Bu kitabda sonralar Türkiyədə də nəşr olunmuş "Təmizlik kağızı" povestini xüsusi qeyd etmək istərdim.



Müharibə illəri və repressiyalar dövrü haqqında bizim ədəbiyyatımızda da, rus ədəbiyyatında da, tatar ədəbiyyatında da dəyərli ədəbi əsərlər yazılıb. Tatar ədəbiyyatını özəlliklə ona görə vurğulayıram ki, bir neçə il bundan əvvəl tatar yazıçısı Güzel Yaxinanın "Züleyxa gözünü açır" romanını maraqla oxumuşdum. Romanda bir tatar kəndinin repressiya illərində başına gələn müsibətlər təsvir edilir.

Stalin dövrünün repressiya faciələrindən bəhs edən əsərlərin çoxunda ziyalıların başına gələn bəlalardan söz açılır. Yanılmıramsa, rus yazıçısı Tendryakovun "Bir kisə buğda" povestində də Güzəl Yaxinanın romanında olduğu kimi bu illərin kənd əzabları qələmə alınır. Tendryakovun romanında bir kisə buğdaya görə əsərin qəhrəmanı ağır cəzalara məhkum edilir.

Şəhər, ya kənd yazıçısı yoxdur, bu doğrudur. Amma kənd həyatını, ya şəhər mühitini təsvir edən əsərlər var. Bu da həqiqətdir. Azərbaycan ədəbiyyatında İsa Hüseynovun, Əkrəm Əylislinin, Mövlud Süleymanlının povest və hekayələrində müharibə dövrünün Azərbaycan kəndi canlı boyalarla təsvir edilib. Səyyad Aranın "Təmizlik kağızı" povestində isə həm müharibə dövrünün, həm də repressiyaların təsirli səhnələrini görürük. Əgər Tendryakovun povestində personaj bir kisə buğdanın "qurbanı" olursa, "Təmizlik kağızı"nda Kərim traktoru qəzaya uğrayanda cəzalandırılır. "Özü başını sarıyıb qanı bir təhər kəsmişdi. Qabırğasının ağrısına isə dözə bilmirdi. Yazıq zar-zar zarıyırdı. Əsas traktor idi. Yüz Kərim kimilər qurban olsun bir traktora, Kərimlər nə qədər, gör traktor var? Hanı?"

Tendryakovun "Bir kisə buğda"sında da, Səyyadın traktorçusunda da, Rəsul Rzanın "Balaca qız və sarı dana" şeirində də epoxanın, dövrün, o dövrdə insan dəyərlərinin, daha doğrusu, dəyərsizliyinin damğası vurulub.

Çox illər qabaq oxuduğum "Təmizlik kağızı"ndan aldığım ümumi təəssürat hələ də xatirəmdən silinməyib. Şəhərlərdə olduğu kimi, kəndlərdə də insanların günahsız ola-ola cəzalandırılmaq vahiməsi. Repressiyaların yalnız ayrı-ayrı ailələri deyil, ümumiyyətlə, insanların mənəvi varlıqlarını şikəst etməsi. İnsanların tək rəsmi məmurlardan – raykomdan, ispolkomdan, prokurordan, milisdən, enkavedədən qorxması yox, adi adamların birbirindən çəkinməsi, şübhələnməsi və bir-birini qabaqlayaraq bir-birlərindən danos verməlәri o dövrün səciyyəvi davranışı idi. Bu dəhşətli mərəz uşaqlara da sirayət edirdi. Lap çocuq yaşlarında olan uşaqlar da "bizimkilərə", "qırmızılara", "stalinçilərə" və "ağlara", "xalq düşmələrinə" bölünürlər, bir birləriylə ölüm-dirim "davası" aparırlar və əsərin qəhrəmanı balaca Eldar da belə bir "döyüşün" qurbanı olur. Və - bu da o zamanın çox dəqiq göstəricisidir - "qırmızılar" da, "ağlar" da, "stalinçilər" də, "xalq düşmənləri" də Stalinə inanır, ona pərəstiş edir, onun yolunda bir-birlərini qırırdılar. Günümüzə qədər davam edən bir ictimai bəlanın çox dəqiq ifadəsi...

Çoxdan oxuduğum povestdən iki kiçik detal da yadımda qalmışdı və yaddaşımı yoxlamaqçün əsəri yenidən vərəqləyib o yeri tapdım. Repressiya olunmuş ailənin qadını sürgün edilmiş ərinin sağ olduğunu biləndə "Şükür! - deyir - deməli, hələ sağdı. Balam yenə atasının canına and içəcək, qəbrinə yox".

Elə bir bu cümlə milli düşüncə örnəyinin dəqiq ifadəsidir. Povestdən bir əyani təşbehi də xatırlayırdım. Qıvrılıb yatmış xal-xal gürzəni müəllif "elə bil bir neçə balaca velosiped təkərini üst-üstə yığmışdılar" bənzətməsiylə gözlərimiz qarşısında əyani şəkildə canlandırır.

Səyyad Aranın yeni əsərlərindən birini - "İrəvana gedən yollar" romanını, təəssüf ki, bir az gec oxudum. Bəlkə də əsəri çıxan vaxt deyil, 44 günlük zəfərimizdən sonra oxumağımın öz mənası varmış. Roman sanki bu tarixi qələbənin ərəfəsində, ona hazırlıq kimi, xalqımızın, döyüşçülərimizin ürəyinə əminlik vəd edən ismarış kimi, eyni zamanda Lələtəpə uğurunun davam etmədiyinə təəssüf hissiylə yazılmışdır. Şükür ki, romanda ifadə olunmuş təəssüfə, nisgilə, "niyə sona qədər getmədik" gileyinə həyatın özünün yazdığı Roman cavab verdi.

Məncə, bu "İrəvana gedən yollar"ın içində üç müxtəlif janrda yazılmış üç ayrı əsər var. Birinci hissə sanki 44 günlük qələbədən sonra hamının gördüyü, şahidi olduğu vandalizm mənzərələrini - tar-mar edilmiş evlərin, kəsilmiş ağacların, talan olunmuş torpağın dəqiq təsviridir, İkinci hissə mənim fikrimcə, tamam başqa səpkidə yazılmış publisistik ricətdir. Rauf - "şair" Qarabağ məsələsinin başlanması, davamı, bu qarşıdurmada hansı xarici qüvvələrin iştirakı barədə ətraflı və dürüst məlumat verir. Bu, təbii ki, mənim subyektiv fikrimdir, məncə, həmin parça dəyərli mətn kimi ayrıca bir kitabda yer ala bilərdi. Onda romanın (!) məhz roman kimi janr bütövlüyü də pozulmazdı. Çünki bu parça roman estetikasıyla yox, publisist yazı səpkisində qələmə alınıb.

Və nəhayət, əsərdəki üçüncü qat - yəni canlı insan xarakterlərini, talelərini əks etdirən epizodlar roman janrına tam uyğundur. Lələtəpə uğrunda döyüşlərin müfəssəl təsviri, ümumi sözlərlə yox, dəqiq ayrıntılarla çatdırılması Səyyad Aranı oxuculara hərbi yazarı kimi də tanıdır. Səyyad Aran yubileyi ilə əlaqədar Tehran Alışanoğlunun yazdığı məqalədəki fikirlə mən də razıyam. Səyyad Aran son əsərləriylə özünü müharibə mövzusunda peşəkar yazıçı kimi də təsdiq edir. Bu fikrə öz arzumu da əlavə etmək istərdim ki, görkəmli nasirimizin yeni yazısı məhz 44 günlük zəfər döyüşlərini əks etdirən əsər olsun.

Yazımın əvvəlində "istedadlı yazıçı" təbirinə "abırlı insan" sözlərini əlavə etməyim onunla bağlıdır ki, Səyyad Aran ədəbi aləmdə heç kəsin uğuruna qısqanmır, hər kəsin yerini bilir. Həm özündən əvvəl gələnləri, həm öz nəsildaşlarını, həm də daha gənc nəslin qabiliyyətli nümayəndələrini obyektiv qiymətləndirir. Bu məlum həqiqətdir ki, istedadlı adam heç vaxt başqasının istedadına həsəd çəkməz, uğuruna qısqanmaz, yaradıcılığına xor baxmaz, qələmdaşının hər yaxşı əsəri çıxanda özünü görməməzliyə vurmaz.

Səyyad Aranın "altmışıncılar" haqqında xoş sözləri, onlara nəcib münasibəti əsl yazıçı əxlaqının bariz örnəyidir. Başqa bir görkəmli nasirimiz Mövlud Süleymanlı haqqında monoqrafiya yazması - mənimçün çoxlarına örnək ola biləcək dərsdir. Səyyad Aranın ədəbiyyatımızın müqəddəs və əbədi ocağı Azərbaycan Yazıçılar Birliyinə saf və dürüst münasibəti də çox önəmlidir.

Uzun illər Yazıçılar Birliyinin nəsr seksiyasına namuslu və cəfakeş yazıçımız Gülhüseyn Hüseynoğlu rəhbərlik etmişdi. Onun vəfatından neçə il keçəndən sonra katibliyin bu vəzifəyə məhz Səyyad Aranı məsləhət görməsi heç də təsadüfi qərar deyildi və əminəm ki, Gülhüseyn müəllimin də ürəyincə olardı.

Səyyad Arana bu işində də, başqa ictimai və siyasi fəaliyyətində də - təbii ki, ilk növbədə bədii yaradıcılığında da yeni-yeni uğurlar diləyirəm. Hamımızı sevindirəcək uğurlar.

**ANAR**
Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri

# SƏYYAD ARAN - 70

## KEÇMİŞ "MÜAVİNİMİN" UĞURLARI

Mən Səyyadı 1968-1969-cu illərdən tanıyıram. Həmin illərdə o zamankı Lenin adına kitabxanada şeir dərnəyinin rəhbəri idim. İstedadlı gənclər, ilk qələm təcrübələrini ortaya çıxaran tələbələr toplaşardılar ora. Onlardan biri də o zamankı Pedaqoji İnstitutun Filologiya fakültəsinin tələbəsi Səyyad Sadiq idi. Bəli, o, şeirlərini bu təxəllüslə yazırdı.

Dərnəyin ən fəal üzvlərindən idi. Bəzən müəyyən işlərim olurdu, ya vaxtında gələ bilmirdim, ya gəlmirdim, orda Nadiyyə adlı bir xanıma deyirdim ki, qoy dərnəyin işini Səyyad aparsın. Çünki o, getdikcə təcrübələnirdi, kursdan-kursa keçib, yetkin ədəbiyyatçı olurdu. Gənclər əsərlərini oxuyanda onların yazılarını ustalıqla, peşəkarlıqla, obyektiv, ədalətli şəkildə təhlil edirdi. İxtisası idi axı. Beləliklə, bir neçə il mənim "müavinim" oldu.



1991-ci ildə qələmə aldığı "Qətl" hekayəsi Azərbaycan xalqının müasir tarixinə hüzn və qəhrəmanlıq səhifəsi kimi həkk olmuş 1990-cı ilin qanlı 20 Yanvar günü Sovet hərb maşını önündə yumruqları düyünlənmiş halda dik dayanan xalqın əzmindən bəhs edir. Hekayəni mən çap etdim. "Yanvar hekayələri"nin müəllifi gözəl yazıçımız Sabir Əhmədliyə ithaf edilmişdi.

Milli azadlıq hərəkatını boğmaq üçün Bakıya, əliyalın dinc əhalinin üzərinə qoşun yeridən imperiya hekayənin qəhrəmanları olan üç qardaşın timsalında xalqımızı susdurub onun milli azadlıq mücadiləsini əlindən ala bilmədi.

O qanlı gecə böyük qardaş Ağahüseyn kimi, çoxları Vətənin başı üzərində dolaşan qara buludu dağıtmaq üçün özünü irəli atıb, uşaqlar azad məmləkətdə yaşasın deyə, özünü fəda etdi. O gecə tırtılları qanlı tankların şəhərin bir ucundan o biri ucuna şütüməsi, qarşısına çıxan hər şeyi darmadağın etməsi, havada güllələrin sayrışması, insanların ah-naləsi Ağababa ilə Atababa kimi bir çox uşaq-yeniyetmədə kinoteatrlarda izlədikləri qorxulu film təsiri yaratmış, faciənin ölçüsünü anlamaqda çətinlik yaratmışdı: "...gündə gördükləri tanklardı da - Qurd qapısında, Qobuda, Güzdəkdə, bayramlarda. Onları sürənlərə evlərindən paxlavadan tutmuş, qutabacan, siqaretdən pulacan o qədər daşıyıblar ki! "Druq" döyüllər?". Hekayənin davamı və sonluğu bu suala çox aydın cavab verir. "Dost" gülləsinin Ağababanın həyatına son qoymasından hiddətlənən Atababa yaşına və silahsız olmasına baxmayaraq, qatil imperiya əsgərlərindən qardaşının qanının hesabını sormaqdan qorxmur, cəsarətlə onların üzərinə gedir.

Hekayənin bu hissəsində yazıçı Atababanın timsalında Azərbaycan kişisinin genində daşıdığı bütün xarakterik xüsusiyyətləri - əyilməzliyini, qorxmazlığını, mərdliyini, erməni qarışığı olan Sovet ordusunun isə məhz bu xarakter qarşısında əzildiyini və elə bu əzikliyin verdiyi qorxu ilə o gecə böyüyə-kiçiyə baxmadan hər kəsi qətlə yetirməyə hazır olduğunu böyük ustalıqla təsvir edir. Bu baxımdan "Allah ağlayırdı..." ilə bitən hekayənin sonluğu hüznlü olsa da, verdiyi mesaj olduqca əhəmiyyətlidir.

"İrəvana gedən yollar" adlı kitabı müasir tariximizin şanlı səhifələrindən olan 2016-cı ilin Aprel döyüşlərinə həsr olunmuşdur. Romanın oxucuya çatdırmaq istədiyi əsas məzmun 2020-ci ilin 44 günlük Vətən müharibəsində qazandığımız Qələbənin təməlinin illər əvvəldən atıldığını göstərməkdir. Aprel zəfərinin iştirakçıları ilə söhbətlərdən ilhamlanaraq sözügedən döyüşləri ədəbi ustalıqla təqdim edən müəllif qəhrəmanlarının dili ilə 100 ildən çoxdur, erməni qəsbkarlarının Moskvadakı himayədarlarının dəstəyi ilə xalqımıza qarşı törətdiyi cinayətləri, əzəli Azərbaycan torpaqları hesabına apardığı eskalasiyanı tarixi faktlar əsasında ortaya qoyur. Xalqımızın bu işğallarla heç vaxt barışmadığının, bir gün tarixi ədaləti bərpa etmək üçün uyğun şəraiti gözlədiyinin, Ali Baş Komandan İlham Əliyevin yürütdüyü məqsədyönlü daxili və xarici siyasət sayəsində o günün uzaqda olmadığının dəfələrlə vurğulandığı kitabda çoxillik Qarabağ savaşımızın geniş mənzərəsi göz önündə canlanır, bu yolda görülən işlərlə bağlı göstərilən faktların zənginliyi qarşıya qoyulan məqsədə müvəffəqiyyətlə nail olacağımızı sübut edir.

Səyyad Aranın ölkəmizdə və xaricdə - Rusiya, Türkiyə, İran, Ukrayna, Serbiyada kitabları çap olunub. Bu da onun yaradıcılığının geniş masştabından xəbər verir. İnanıram ki, keçmiş "müavini"min uğurları daha çox olacaq. Bu yolda ona cansağlığı, uzun ömür arzulayıram.

**Nəriman Həsənzadə,**
Xalq şairi

# ÖZÜ ÖZ YANINDA OLAN ADAM



Səyyad Aran mənim tanıdığım, gördüyüm dostlarımın, qələm əhlinin çox böyük əksəriyyətindən maraqlı adamdı. Bəlkə də bu müqayisə alınmadı, yəni çox zəngin, geniş insandı. Həm insan kimi, lap dərinə getsək ailə başçısı kimi və ziyalı kimi çox geniş adamdı. Çox sonsuz üfüqləri var, hiss olunur. Biz Səyyad Aranla uzun müddət dinməz-söyləməz oturmağı bacarırıq...

Səyyadla biz bu cür bir-birimizi anlaya bilirik. Əslən Batı cəmiyyətimizdəndi - yəni indiki Ermənistandan - İrəvan çuxurundan.

70-ci illərin ortalarından tanışıq. Həmişə İmişlidənəm, - dedi. Çünki İrəvanın indisini qəbul etməmişdi. Söz düşəndə sarsıldığını, gərildiyini anlayırdım. Amma keçmişlər yadındaydı, dədə-babadan qalma keçmişlər. O səmtə əli uzanıqlı idi... Hər dəfə oranı, oranın adamlarını axtarıb arayırdı - tapanda itirdiyini bulmuş kimi "o da o yurddanmış!" - sevinc içində deyərdi.

Yazılarında açıq şəkildə o həsrət yoxdu, deyirəm yəqin, orda yaşamayıb, ona görədi... Amma "Başdaşı" və "İrəvana gedən yollar" romanında qəzəb və hiss oradan gələndi. İnanıram ki, gələcək yazılarında, elə "Tacın qaytarılması" romanında bu öz əksini tapacaq, İrəvan öz yurdu kimi xatırlanacaq.

"Körpü", "Əfəl", "Qarpız", "Sandıqda qalan muştuluq" və s. hekayələrlə tanıdım Səyyadı. Həmin yazıların ab-havası indi də yadımdadır. Ona görə də biləndə ki, İrəvandandı - Aranın bu tipik mənzərələrini necə yaratdığına heyran qaldım. İnanıram ki, yeni yazmağa başladığı "Tacın qaytarılması" romanında da bu yanğı öz əksini tapacaq. Bu da o deməkdir ki, gələcəkdə, inşaallah, böyük həsrətimizə də - İrəvana da qovuşacağıq.

Səyyad hər şeyə, hər istiqamətə hazır olan adamdı. Belə tanımışam onu. Yazılarından tanımamışam bir şəxs kimi, bu şəkildə bilmişəm. Əslində mən özüm də cavan idim Səyyad Aranı tanıyanda. Onu mənimlə rəhmətlik Fərman Kərimzadə tanış eləmişdi. Dedi İrəvandandı, amma mən soruşanda dedi İmişlidənəm. Qəribə bir şey oldu, üstünü vurmadım. Çünki bizim onsuz da millət, xalq, kənd-kəsək olaraq belə işlər başımıza çox gəlib, ona görə də saxladım sonraya. Və tez hekayələrini oxumağa başladım. Bu, təxminən 70-ci illərin ortaları olardı. Onda "Ulduz" jurnalında nəsr şöbəsində işləyirdim. Hekayələri tamam məni qane elədi. Mövzuları şəhərdən tutmuş, kəndə, kənddən tutmuş, dağlara, yaylaqlara yaxın tema idi. Bu yadımda qalıb. Çox sıcaq, isti dili vardı, əzilmiş deyildi, əzilmiş - yəni kimsədən götürülən deyildi. Adamlara yaraşan, bəzəksiz-düzəksiz, içdən gələn və yaxın üslub idi. Aran kənd həyatından çox geniş, çox dərin, həyati detallarla danışırdı, mükəmməl idi. Sonradan çox yaxından dost olduq. Bir yerdə çox olduq. Mənə qaranlıq məqamlar açıqlandı. Əslində kökləri İrəvandandır. 48-49-cu illərdə köçürülüblər İmişliyə. İmişlini də İrəvanı sevdiyi kimi sevir. Oxuduğum hekayələrində İmişlinin mənzərələri var. İrəvan 30-40 il bundan qabaq dilindən düşmürdü. İrəvanlı olduğunu qəribə bir sevinclə ifadə edirdi. Hiss eləyirdim ki, İrəvan yurd kimi həmişə yadındadı. Başqa bir üstünlüyü - yəni mənim bəyəndiyim - yanında həmişə özüdür. Yanında olsan, səninlə çox səmimi olsa da, özünü unutmur. Özünü unudan adam deyil. O qədər orijinaldır, o qədər sol getməyi var ki, bir də baxırsan öz bildiyi yoldan getdi. Sonra görürsən ki, doğru edib vaxtında, yəni bu cür ağsaqqal adamdı. Qəribə ağsaqqallığı var. Sonradan mənə bəlli oldu ki, bu qədər çox vaxtından yazı yazmağa az vaxt ayırır. Bu nəticəyə gəldim. Özümlə müqayisədə deyirəm. Mən heç vaxt yazımı unutmamışam. Ərkim çatan çox adama demişəm ki, vaxt ayırmaq lazımdı. Vaxt ayırmaq yox, gərək yazıdan çıxmayasan. Çörək yeyəndə də, yatanda da yazmalısan. Mən, açığı deyim, elə olmuşam. Yenə də bəyəndiyim yazıçılara, can atdığım ünvanlara baxanda həmişə Səyyad Arandan yazı gözləmişəm. Səyyad Aran yuxarıdan görməyi bacaran qələm əhlidir. Addımını boş yerə atmır, dolu yerlərə qoyur. İşində də, ailə söhbətlərində də belədir. Siyasətlə də məşğuldur. Çox natiq adamdır, hərtərəflidir. Unudan deyil, münasibəti yaşadandı - indinin özündə də.

"İrəvanın yolları" romanını 2 dəfə oxumuşam. Ondan öncəki "Başdaşı" romanını da oxumuşam, qeydlər aparmışam. Çox ürəklə oxumuşam. Mənim nəticəm odur ki, Səyyad potensial gücünə, genişliyinə, mövqeyinə yaraşası yazılar yazacaq.

**Mövlud Süleymanlı,**
Xalq yazıçısı

# DÖVLƏT KOMİTƏSİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ İSLAHAT KÖNÜLLÜLƏRİ İLƏ GÖRÜŞÜB



Martın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin birinci müavini, yazıçı-publisist, Əməkdar jurnalist Səyyad Aranın İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) nəzdində fəaliyyət göstərən İslahat könüllüləri ilə görüşü keçirilib.

Görüşü giriş sözü ilə açan Mərkəzin nümayəndəsi Mətanət Rəsulova 2016-cı ildən İİTKM-in tərkibində yaradılan "İslahat Könüllüləri" Təşkilatı barədə məlumat verib. Bildirib ki, könüllü proqramının təsis edilməsində prioritet məqsəd gənclərin iqtisadi və analitik sahədəki mövcud potensialını üzə çıxarmaq və ondan səmərəli istifadə etmək, gələcək karyeraları istiqamətində onları doğru yönləndirmək və asudə vaxtlarını düzgün qiymətləndirmələrinə yardımçı olmaqdır. Daha sonra M.Rəsulova gəncləri Səyyad Aranın zəngin həyat yolu, böyük dövlətçilik təcrübəsi barədə məlumatlandırıb.

DQİDK sədrinin birinci müavini Səyyad Aran İslahat könüllülərinə Komitənin əsas fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verərək bildirib ki, buraya dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsi, dini qurumların dövlət qeydiyyatının aparılması, müxtəlif dini etiqadların dini qurumları arasında qarşılıqlı anlaşmanın, bir-birinə dözüm və hörmətli münasibətin möhkəmlənməsinə kömək edilməsi, dini zəmində qarşıdurma, eləcə də ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alınması və s. daxildir. Eyni zamanda sədrin birinci müavini Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətlərindən danışıb. O qeyd edib ki, Ümummilli Liderin ölkədə insan hüquq və azadlıqlarının təmin edilməsində, mənəvi dəyərlərin qorunmasında, böyüməkdə olan nəsillərin sağlam ruhda tərbiyəsində, eləcə də elm, təhsil, mədəniyyət və digər sahələrin inkişafında müstəsna xidmətləri olub. Bu gün də bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Gəncləri təhsilə, elmə, mənəvi dəyərlərimizə daha da bağlı olmağa çağıran Səyyad Aran gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb, dəyərli tövsiyələrini verib. Sonda S.Aran görüş iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

Gənclər də öz növbələrində zəngin həyat yolu keçən, böyük dövlətçilik təcrübəsinə malik ziyalımız Səyyad Arana faydalı görüş üçün minnətdarlıqlarını bildiriblər.

S.Aran İİTKM-də yerləşən "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin fəaliyyəti ilə də tanış olub.

# "MƏNƏVİ İNTİBAH" SƏNƏDLİ FİLMİ TƏQDİM OLUNUB




Martın 15-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) birgə təşkilatçılığı ilə "Mənəvi intibah" filminin təqdimatı keçirilib.

Tədbiri açan DQİDK-nın sədr müavini Səyavuş Heydərov sənədli film haqqında məlumat verib. Bildirib ki, filmdə insanların dəyərlərdən uzaqlaşdıqca mənəviyyatlarında böhran baş verməsindən, dinin siyasiləşdirilməsinin fəsadlarından, insanlığın, bəşəriyyətin böhranlardan, müharibələrdən, eləcə də digər qlobal və regional kataklizmlərdən xilas yolunun mənəvi intibahdan keçməsindən, xüsusilə hazırda dünyada mövcud olan mənəvi böhrandan çıxış yolu, o cümlədən bir "yol xəritəsi" kimi Azərbaycanda formalaşmış multikultural, tolerantlıq, birgəyaşayış ənənələrindən bəhs edilib.

Dünyada, ölkəmizdə baş verən dini proseslər, təhdidlər və onların qarşısının alınması yollarına da toxunan S.Heydərov bildirib ki, din pərdəsi altında cərəyan edən proseslərin artım dinamikasını nəzərə alaraq dini təhlükəsizlik məsələsinin daim diqqət mərkəzində saxlanılması olduqca vacib məqamdır. Azərbaycanda tarixən formalaşmış yüksək tolerantlıq mədəniyyətinin cəmiyyətimizin təhlükəsizliyi üçün böyük potensial olduğunu deyən DQİDK-nın sədr müavini xalqımızın çoxəsrlik tolerant və mehriban birgəyaşayış ənənələrinin nümunə kimi göstərildiyini qeyd edib. Həmçinin nümunəvi mühitin qorunub saxlanılması, mövcud təhlükə, təhdidlərin qarşısının alınması üçün sistemli və geniş formada maarifləndirmə tədbirlərinin keçirildiyini bildirən natiq "Mənəvi intibah", eləcə də bu qəbildən olan filmlərin hazırlanmasının bu istiqamətdə atılan addımların tərkib hissəsi olduğunu diqqətə çatdırıb.

Sənədli filmin nümayişindən sonra fikirlərini bölüşən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı filmin maarifləndirici əhəmiyyəti barədə danışaraq ölkəmizdə bütün dinlərin və millətlərin nümayəndələrinə dünyanın bir çox dövləti üçün nümunə hesab olunacaq səviyyədə tolerant münasibət bəsləndiyini deyib.

BBMM-nin icraçı direktoru Rəvan Həsənov sənədli filmin verdiyi mesajlara diqqət çəkərək, Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyevin multikulturalizmin inkişafına verdiyi dəyərdən danışıb. Eyni zamanda, 44 günlük Vətən müharibəsi zamanı din amilindən sui-istifadə hallarına toxunan R.Həsənov Ermənistan tərəfindən Azərbaycanın tarixi-dini abidələrinin dağıdılmasına baxmayaraq, bəzi beynəlxalq təşkilatların buna qeyri-obyektiv yanaşdığını bildirib.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmərxanım Cavadlı filmin tolerantlıq ənənələrinin gücləndirilməsi və təbliği baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov dünya tarixində baş verən müharibələrdə dinin təsirlərindən danışıb. Müasir dövrümüzdə də bu tendensiyanın olduğunu təəssüflə vurğulayan rektor məzhəblərarası qarşıdurmanın mənfi tərəflərinə diqqət çəkib.

Tədbirdə çıxış edən Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" Xristian dini icmasının sədri Rasim Xəlilov, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan yeparxiyasının katibi Arximandrit Aleksiy, Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası yepiskopunun birinci müavini Yozef Marek, Azərbaycan Bəhailəri Dini Mərkəzinin katibi Ramazan Əsgərli, Avropa yəhudilərinin Bakı dini icmasının baş ravvini Şneor Seqal, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının ravvini Avraham Yakubov, Bakı şəhəri "Yevangelist Xristian Baptistlərin kilsəsi" dini icmasının sədri İlya Zençenko dini mənfi təsirlərdən qorumağın vacibliyini vurğulayaraq, Azərbaycanda hər bir din mənsubuna göstərilən diqqətə görə minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, "Mənəvi intibah" sənədli filmi Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" Xristian dini icmasının sifarişi əsasında çəkilib.

# DAXİLİ QOŞUNLARIN GƏNCƏDƏKİ "N" SAYLI HƏRBİ HİSSƏSİNDƏ MAARİFLƏNDİRMƏ TƏDBİRİ KEÇİRİLİB



Martın 16-da Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) arasında Dini radikalizmə qarşı mübarizənin effektivliyinin artırılması məqsədilə maarifləndirmə istiqamətində birgə işin təşkilinə dair imzalanmış Tədbirlər Planı çərçivəsində Gəncədəki "N" saylı hərbi hissədə "Multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmləndirilməsindəki önəmi" adlı tədbir keçirilib. Tədbirdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Həsən Məmmədov, hərbi hissənin zabit və gizir heyəti, əsgərlər iştirak ediblər.

Komitənin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icmasının sifarişi əsasında çəkilmiş "Mənəvi intibah" sənədli filminin nümayiş etdirilməsi ilə başlayan tədbirdə çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov dini radikalizm və ekstremizmin yaranma səbəbləri, həmçinin onlara qarşı mübarizənin hüquqi əsasları barədə ətraflı məlumat verib. Ölkəmizdə ictimai-siyasi sabitliyin və dünyaya örnək ola biləcək tolerantlıq mühitinin olduğunu vurğulayan S.Heydərov dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, eləcə də cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınması sahələrində dövlət tərəfindən geniş tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi, onlarda vətənpərvərlik hisslərinin artırılması, ümumbəşəri və multikultural dəyərlərə hörmət aşılanması hər zaman prioritet olub.

Çıxışlardan sonra tədbir iştirakçıları arasında mövzu ətrafında müzakirələr aparılıb, onları maraqlandıran suallar cavablandırılıb.

# XALQIMIZIN MİLLİ BİRLİYİNİN MÖHKƏMLƏNMƏSİNDƏ MƏNƏVİ DƏYƏRLƏRİMİZİN ROLU YÜKSƏKDİR



Martın 16-da Gəncə şəhərində yerləşən İmamzadə Dini Kompleksində “Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu” mövzusunda tədbir keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərov, Türkiyənin Gəncə şəhərindəki baş konsulu Zeki Öztürk, DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Həsən Məmmədov, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurasının üzvü hacı Tahir Abbasov, şəhid ailələrinin üzvləri və qazilər iştirak ediblər.

Tədbir şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov çıxışında vurğulayıb ki, Azərbaycan dövləti milli-mənəvi dəyərlərimizin qorunması və inkişafına hər zaman xüsusi önəm verir. Ölkəmizdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın birgə səyləri nəticəsində milli-mənəvi, ümumbəşəri dəyərlərin təbliği sahəsində böyük canlanma yaranıb. S.Heydərov bildirib ki, 44 günlük Vətən müharibəsində xalqımızın həmrəylik nümayiş etdirməsi, mənəvi dəyərlərimizin yüksək səviyyədə təbliğ olunmasının nəticəsidir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik və uzaqgörən hərbi-siyasi gedişləri, yüksək peşəkarlığa malik şücaətli Azərbaycan Ordusu, ən nəhayət, xalqımızın nümayiş etdirdiyi milli və dini həmrəylik müharibənin taleyini həll etdi. DQİDK-nın sədr müavini onu da deyib ki, Vətənin azadlığı, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan oğul və qızlarımızın xatirəsi daim xalqımızın qəlbində yaşayacaq. Vurğulayıb ki, istər dövlətimiz, istərdə də cəmiyyətimiz tərəfindən şəhid ailələrinin üzvlərinə və qazilərimizə böyük hörmət və ehtiram göstərilir. “Bu gün üçrəngli bayrağımız işğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda dalğalanır. Şübhəsiz ki, bu Qələbənin əldə edilməsinin əsasında cənab Prezidentin uğurlu, praqmatik siyasəti, eləcə də xalqımızın həmrəyliyi dayanır”, - deyə S.Heydərov əlavə edib.

Sədr müavininin sözlərinə görə, dünyada dini zəmində baş verən münaqişələr kontekstində Azərbaycanda dini etiqad sahəsində möhkəm dayaqlara malik hüquqi mexanizmlər mövcuddur. Azərbaycanda din azadlığı prioritet məsələdir və onun qorunması ölkənin təhlükəsizliyinin başlıca qarantıdır. Respublikamız bütün dünyada tolerantlıq mərkəzinə, XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavab axtarmaq, humanitar əməkdaşlıqla bağlı ən mühüm məsələlərə dair geniş spektrli dialoqlar və müzakirələr aparmaq üçün beynəlxalq miqyasda nüfuzlu elmi-siyasi platformaya çevrilib.

Daha sonra çıxış edən Türkiyənin Gəncə şəhərindəki baş konsulu Zeki Öztürk Azərbaycanın son illərdə siyasi, hərbi, mədəni və sosial sahələrdə əldə etdiyi uğurlara diqqəti çəkib. Diplomat bildirib ki, Azərbaycanın nailiyyətləri qardaş ölkədə böyük sevinclə qarşılanır.

QMİ-nin Qazılar Şurasının üzvü hacı Tahir Abbasov, Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Azər İbrahimov bu cür tədbirlərin əhəmiyyətini yüksək qiymətləndirərək ölkəmizdə mövcud olan milli və dini həmrəylikdən danışıblar.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞ KEÇİRİLİB

Martın 31-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərov “Xilaskar” Yevangelik Lüteranların Bakı dini icmasının sədri Vera Nesterova, icmanın pastoru Lemke Qothard Günter Valter ilə görüşüb.

Görüşdə icmanın fəaliyyəti ilə bağlı yeni imkanlar müzakirə olunub, perspektivlər və qarşıda duran məsələlərdən bəhs edilib. Eyni zamanda, keçiriləcək tədbirlər ətrafında fikir mübadiləsi aparılıb. İcmanın fəaliyyəti ilə bağlı qanunvericiliyin tələbləri izah edilərək qaldırılan məsələnin həllinə köməklik və dəstək göstəriləcəyi diqqətə çatdırılıb.

Sonda icma üzvləri Azərbaycanda dini qurumların, ibadət ocaqlarının fəaliyyəti üçün yaradılan hüquqi-mənəvi şəraitdən razılıqlarını ifadə edərək dövlətin dini konfessiyalara göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.



# “MARVEL”İN İLK MÜSƏLMAN KOMİKS QƏHRƏMANI HAQQINDA SERİAL ÇƏKİLƏCƏK




“Marvel”in ilk müsəlman komiks qəhrəmanı olan “Ms. Marvel” serial kimi çəkiləcək.

İyunun 8-ində başlayacaq serial “Disney Plus”-da göstəriləcək və həftəə bir seriyası yayımlanacaq.

Marvel Kainatında Kəmalə xan / Ms. Marvel bədəninin formasını dəyişmək qabiliyyətinə malik Pakistan əsilli amerikalı yeniyetmədir. O, 2014-cü ilin fevralında yayımlanan Ms. Marvel solo seriyasının baş qəhrəmanına çevrilməzdən əvvəl ilk dəfə 2013-cü ilin avqustunda “Captain Marvel #14”-də görünüb.

# ƏR-RİYADDA ŞƏRQ ƏDƏBİYYATININ NADİR ƏLYAZMALARI NÜMAYİŞ ETDİRİLİB



Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda Şərq-müsəlman ədəbiyyatının nadir əlyazmalarının nümayiş etdirildiyi sərginin açılışı olub.

Kral Faysal Mərkəzində təşkil olunmuş sərgidə 36 qədim əlyazma nümayiş etdirilib. Bunların arasında eramızdan əvvəl I əsrdə yaşadığı düşünülən Bəydəba tərəfindən qələmə alınmış “Kəlilə və Dimnə” əsərinin VIII əsrdə İbn əl-Muqaffahın ərəb dilinə tərcümə etdiyi ikinci surəti, XIV əsr böyük Şərq filosofu İbn Xəldunun “Kitab əl-İbar əl-Mübtəda və əl-Xabar” əsəri, əl-İmam Malikin topladığı və iki min il yaşı olan əlyazmalar toplusu, XVI əsrdə Romada nəşr edilmiş “İncil”in ərəb dilində tərcüməsi və digər qiymətli əlyazmalar var. Ziyarətçilərin ən çox diqqətini cəlb edən isə Misirdəki Məmlük dövründə ən mahir xəttatların nəfis şəkildə işlədiyi “Qurani-Kərim” nüsxəsidir.

Sərginin təşkilatçıları bu eksponatları 187 min əlyazmanın arasından seçiblər və Kral Faysal Tədqiqatlar və İslam Mərkəzinə təqdim ediblər.

# AVROPA PARLAMENTİNİN 10 MART 2022-Cİ İL TARİXLİ QƏTNAMƏSİNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASI DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN MƏLUMATI

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Avropa Parlamenti tərəfindən cari ilin mart ayının 10-da qəbul edilmiş qətnaməyə etiraz olaraq bəyanat qəbul etmiş və həmin sənəd Avropa Parlamentinə göndərilmişdir.

Bəyanatda sözügedən qətnamə Azərbaycanın beynəlxalq hüquqla tanınan ərazi bütövlüyü və suverenliyinin şübhə altına alınmasına, aqressiv separatizmin açıq şəkildə dəstəklənməsinə, o cümlədən azad edilmiş ərazilərdə Azərbaycana məxsus tarixi, dini-mədəni irsin erməniləşdirilməsinə hüquqi don geyindirilməsi cəhdlərinə yönəlik addım kimi şiddətlə qınanılmış və qərəzli hesab edilmişdir.



Sənədin erməni lobbi qruplarının təsiri altında hazırlandığı bildirilərək, onun real vəziyyəti əks etdirmədiyini, Azərbaycan tərəfinin tarixi-dini, o cümlədən qəbirüstü abidələrə olan həqiqi münasibəti fonunda ermənilərin saxta iddialarını özündə əks etdirdiyi təəssüflə qeyd edilmişdir.

Eyni zamanda vurğulanmışdır ki, qətnamədə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində "erməni" abidələri heç bir fakta söykənməyən rəqəmlərlə göstərildiyi halda Azərbaycana məxsus tarixi-dini abidələrin aqibətinə göz yumulur. Belə ki, azad edilmiş ərazilərdə (67 məsciddən 65-i dağıdılmış, Ağdam Cümə məscidi hərbi məqsəd naminə qismən salamat saxlanılmış, Şuşadakı Yuxarı Gövhərağa məscidi isə təmir adı altında saxtalaşdırılaraq fars məscidi kimi təqdim edilmişdir) və bugünkü Ermənistan ərazisində qarşı tərəfdən azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımın həyata keçirilməsi, Azərbaycan toponimlərinin erməniləşdirilməsi, yüzlərlə tarixi-mədəni abidələrlə bərabər, məscid, ziyarətgahların dağıdılması və heyvanlar saxlanılmaqla dini dəyərlərin təhqir edilməsi, həmçinin ölkəmizin Xristianlığa aid irsinin - Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının varisi olduğu Qafqaz Albaniyasının Alban Apostol kilsəsinin, eləcə də pravoslav xristian məbədlərinin saxtalaşdırılaraq qriqoryanlaşdırılması və ya məhv edilməsi faktı məqsədli şəkildə göstərilmir. Ümumiyyətlə, Azərbaycanın dini-mədəni irsinin məruz qaldığı vandalizm aktları barədə heç bir qeydə rast gəlmək mümkün deyil.

Dövlət Komitəsinin bəyanatında işğal dövründə erməni vandalları tərəfindən hətta qəbiristanlıqlara da aman verilmədiyinə, ümumilikdə təqribən 900-dən çox qəbiristanlığın tamamilə dağıdılaraq yerlə bir edilməsinə, qəbir daşlarının sındırılmasına, məzarların qazılaraq cəsədlərin çıxarılmasına, təhqir olunmasına, qəbirüstü abidələrin talan edilməsinə, Azərbaycan vətəndaşlarının 30 il ərzində öz yaxınlarının məzarlarını ziyarətdən məhrum edilməsinə diqqət yönəldilmişdir.

Etiraz Bəyanatında 44 günlük Vətən müharibəsi müddətində Azərbaycan Silahlı Qüvvələri tərəfindən düşmənin mülki obyektlərinə, habelə dini təyinatlı binalara hər hansı hücum əməliyyatı həyata keçirilməməsi xarici jurnalistlərin belə dəfələrlə təsdiqlədiyi fakt kimi bir daha vurğulanmışdır. Hərbi əməliyyatlar bitdikdən dərhal sonra Azərbaycan hökuməti tərəfindən azad olunmuş ərazilərdə Ermənistan Silahlı Qüvvələri tərəfindən dağıdılmış bütün dini abidələrin bərpa edilməsinin bəyan edilməsi, həmin ərazilərin sosial-iqtisadi inkişaf planının hazırlanması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına əsasən, "Böyük Qayıdış" proqramı əsasında bərpa prosesinin başlandığı öz əksini tapmışdır. Habelə Azərbaycan tərəfindən bütün ölkə miqyasında olduğu kimi, Ermənistanın işğalından azad edilmiş ərazilərimizdəki tarixi-dini abidələrin Azərbaycan irsinə məxsusluğu və onların qorunmasının Azərbaycan dövlətinin öhdəliyində olmasının müxtəlif kürsülərdən ən yüksək səviyyədə dəfələrlə bildirildiyi qeyd edilmişdir.

Şuşada məscidlərlə yanaşı, iki kilsənin bərpası Azərbaycanın abidələrə qarşı fərq qoymaması, əksinə, müxtəlif mədəniyyətlərə və dinlərə hörmət nümayiş etdirməsi bütün dini nümunələri milli-mənəvi dəyərlərinin bir parçası kimi qəbul etməsinin bariz göstəricisi kimi vurğulanmışdır.

Qeyd edilənlərlə yanaşı, Azərbaycanın Ermənistandan fərqli olaraq, tarixi-mədəni irsinə dini və etnik zəmində ayrı-seçkilik etmədiyi və Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında 1954-cü il Haaqa Konvensiyası da daxil olmaqla, beynəlxalq konvensiyalar üzrə öhdəliklərinə sadiqliyi, qarşı tərəfin isə əksinə, Konvensiya ilə bərabər "Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt", "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyası və s. beynəlxalq norma və standartların tələblərini kobud surətdə pozduğu ifadə edilmişdir.

Bəyanatda 2022-ci il fevral ayının 4-də Azərbaycan Respublikasının Prezidenti, Avropa İttifaqına sədrliyi qismində Fransa Prezidenti, Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin iştirakı ilə videoformatda keçirilmiş görüşün nəticəsi olaraq UNESCO missiyasının Azərbaycana və Ermənistana göndərilməsinə dair razılıq ifadə edilməsi Ermənistan ərazisində Azərbaycan xalqına məxsus mədəni irsin vəziyyətinin öyrənilməsi zərurətinin təsdiqi olduğu bildirilmiş, Avropa Parlamentinin qəbul etdiyi qətnamədə nədənsə bu məsələyə ümumiyyətlə toxunulmaması təəssüflə qarşılanmışdır.

Sonda Dövlət Komitəsi Avropa Parlamentinin erməni mənbələrinə əsaslanan qərəzli məlumatlar yaymaq cəhdini bir daha şiddətlə qınamaqla sözügedən qurumu gələcəkdə obyektiv qətnamələrin qəbuluna çağırmışdır.

# "KÖNÜLLÜMÜZ OL" LAYİHƏSİNİN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞLƏR KEÇİRİLİB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) "Könüllümüz ol" layihəsinin iştirakçıları ilə növbəti görüş keçirilib.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə rəhbərlik etdiyi şöbənin fəaliyyət istiqaməti barədə ətraflı məlumat verərək bildirib ki, struktur bölmə respublikada dini durumun öyrənilməsi və dini proseslərin izlənilməsi funksiyalarını yerinə yetirir, eyni zamanda səlahiyyəti çərçivəsində dini duruma nəzarət etmək, dini qurumlar, onların fəaliyyəti barədə məlumat toplamaq işlərini həyata keçirir.

C.Əlifzadə, həmçinin şöbənin tərkibində Dini təhsil sektorunun fəaliyyət göstərdiyini, sektorun ölkədə dini təhsillə bağlı vəziyyəti öyrənib, dini təhsil müəssisələrinin işinə nəzarəti həyata keçirdiyini könüllülərin diqqətinə çatdırıb.

Görüşün sonunda Dövlət Komitəsinin rəsmisi könüllüləri maraqlandıran sualları cavablandırıb.

***

Martın 10-da "Könüllümüz ol" layihəsinin iştirakçıları DQİDK-nın tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunda olublar.

Fondun icraçı direktoru Mehman İsmayılov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə təsis edilən könüllülük hərəkatının faydalarından danışıb. O, həmçinin könüllülüyün bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli prosesə çevrilməsindəan, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etməsindən bəhs edib.

Gənclərə Fondun fəaliyyəti, həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verən M.İsmayılov görüşün sonunda könüllüləri maraqlandıran sualları cavablandırıb.



# QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNDƏ AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ İLƏ ƏLAQƏDAR TƏDBİR KEÇİRİLİB



Martın 29-da Qafqaz Müsəlmanları İdarəsində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar tədbir keçirilib.

Tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə və Azərbaycandakı dini konfessiyaların rəhbərləri iştirak ediblər.

Əvvəlcə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə tədbir iştirakçılarını salamlayıb, Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib, xalqımıza və dövlətimizə uca Allahdan xeyir-dualar diləyib.

Sonra Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Tədbirin 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ərəfəsində keçirildiyini xatırladan QMİ sədri Allahşükür Paşazadə bildirib ki, bu qanlı tarix – 1918-ci ilin Mart soyqırımı Bakı şəhərində və müxtəlif bölgələrimizdə daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğınları ehtiva edir. Bu soyqırımı nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşüb.

Lakin erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi var. XIX əsrin əvvəllərindən başlayaraq Qafqazda məqsədyönlü şəkildə kütləvi məskunlaşdırılan ermənilər az müddət sonra bölgəni, sözün əsl mənasında, “qan çanağı”na çeviriblər. Azərbaycanlılara qarşı kütləvi qətllərin və soyqırımı aktlarının törədilməsi ilə müşayiət olunan bu siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu "böyük Ermənistan" dövləti yaratmaq idi. Bu məqsədlə Ermənistanda və ayrı-ayrı xarici dövlətlərdə dırnaqarası "milli-mədəni", dini, siyasi və hətta terrorçu təşkilatlar qurmuş, erməni diasporunun və lobbisinin imkanlarını səfərbər etmişlər. 1948-1953-cü illərdə ermənilər yüz minlərlə azərbaycanlının öz ata-baba yurdundan deportasiyasına nail oldular və faktiki olaraq Ermənistan Respublikası ərazisində monoetnik respublika yaratdılar. Görkəmli dövlət xadimi Heydər Əliyevin Siyasi Büronun rəhbərliyindən uzaqlaşdırılmasından istifadə edən erməni şovinistləri etnik təmizləmənin yeni dalğasını həyata keçirdilər – 250 mindən çox azərbaycanlının Ermənistandan amansızlıqla qovulmasına nail oldular. 1992-ci ildə erməni ekstremistlərinin qədim Xocalıda həyata keçirdikləri məqsədyönlü soyqırımı aktı isə onların törətdikləri vəhşiliklərin kulminasiya nöqtəsi oldu.

Soyqırımı və deportasiya siyasəti xalqımıza ağır maddi və mənəvi zərbələr vurmuş, onun tarixi yaddaşında silinməz izlər buraxmışdır. Bütövlükdə, 2 milyona yaxın azərbaycanlı mənfur erməni siyasətinin fəlakət və dəhşətlərini öz taleyində yaşamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulan həqiqətlər açılmış, təhrif edilən hadisələr əsl qiymətini almışdı. Ümummilli lider Heydər Əliyev 1998-ci il martın 26-da imzaladığı Fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi.

Qafqazın tarixi-dini mərkəzi olan Qafqaz Müsəlmanları İdarəsinin Azərbaycandakı dini konfessiyalarla birgə dünya dini liderlərinə, parlamentlərinə, beynəlxalq təşkilatlara illərdir etdiyi müraciətlərdə Azərbaycan xalqına qarşı törədilmiş ədalətsizliklərə tarixi qiymətin verilməsinə, həyata keçirilmiş qətllərin bütöv xalqa qarşı planlı surətdə reallaşdırılan soyqırımı həqiqətlərini dünya ictimaiyyətinə çatdırdığını deyən şeyxülislam Allahşükür Paşazadə qeyd edib ki, bu il də birgə müraciəti məqamlarına ünvanlanıb, mətbuat vasitəsilə və Xarici İşlər Nazirliyi xətti ilə dünya ictimaiyyətinin diqqətinə çatdırılıb.

“Soyqırımı kimi bəşəri cinayətlərin bir daha heç vaxt təkrarlanmaması üçün bu müraciətlər, ədalətin bərqərar olması həddən artıq vacibdir. Şükürlər olsun ki, Azərbaycan xalqı 44 günlük haqq mübarizəsi - Vətən müharibəsi nəticəsində Müzəffər Ali Baş Komandanının rəhbərliyi, qəhrəman Ordusunun rəşadəti sayəsində tarixi ədaləti, ərazi bütövlüyünü bərpa etdi, Qarabağı erməni işğalından qurtardı. Azərbaycan xalqı müdrik rəhbərinin siyasi iradəsi ilə bu gün azad Qarabağda vaxtilə erməni faşistləri tərəfindən dağıdılmış mədəni-mənəvi irsini yenidən dirçəldir, tarixi abidələrinə və ziyarətgahlarına yeni həyat verir. Azərbaycan Prezidentinin və Birinci vitse-prezidentin Qarabağa hər səfəri zamanı dövlət əhəmiyyətli obyektlərin təməlinin qoyulması ilə yanaşı, dini-mənəvi abidələrin təmir, bərpa edilməsi və yenidən qurulması ilə bağlı əsaslı layihələrin gerçəkləşdirilməsinə hamı şahiddir. Biz ölkəmizdə, bölgədə, bütün dünyada sülhün, əmin-amanlığın hökm sürməsi üçün dualar edir, səylərimizi əsirgəmirik. Bu gün Ukraynada cərəyan edən hadisələrdən narahatlığımızı ifadə edir, dinc insanların həyatlarına olan təhlükənin qarşısının alınmasını vacib sayırıq. Qocalar, qadınlar, uşaqların qaçqın taleyi yaşamasına son qoyulması, humanitar fəlakətin qarşısının alınması üçün biz dini konfessiya rəhbərləri olaraq tərəfləri nifaq və qarşıdurmanı danışıqlar vasitəsilə həll etməyə çağırırıq. Bu torpaqlarda tezliklə sülhün bərqərar olması hər birimizin istəyidir”, – deyə şeyxülislam Allahşükür Paşazadə qeyd edib.

Bildirilib ki, zaman-zaman xalqımıza qarşı etnik təmizləmə, maddi və mənəvi terror gerçəkləşdirmiş erməni ekstremistlər qəsb etdikləri Azərbaycan torpaqlarında vandalizm aktları həyata keçirərək tarixi, dini və mədəniyyət abidələrimizi məhv ediblər. Lakin dünya birliyi, beynəlxalq təşkilatlar bu həqiqətləri görməzdən gəlməkdə davam edirlər. UNESCO mütəxəssislərinin səfəri ertələnir. Xalqımızın mədəni irsinə, dini-mənəvi abidələrinə qarşı mədəni soyqırımı həyata keçirmiş, qəbiristanlıqlarımızı yerlə-yeksan etmiş ermənilərin törətdikləri göz qabağında olduğu halda Avropa Parlamenti bu günlərdə Qarabağda guya erməni mədəni irsinin məhv edilməsi barədə qətnamə qəbul edir. Bu, Azərbaycana qarşı uzun illər davam etmiş ikili yanaşmanın daha bir mənfur nümunəsidir. Avropa Parlamentinin martın 10-da Azərbaycanla bağlı qəbul etdiyi, tamamilə əsassız ittiham və tələblərin əks olunduğu qərəzli qətnamə beynəlxalq hüquq prinsiplərinə hörmətsizlik, ədalətin pozulmasıdır. Biz, Azərbaycandakı dini konfessiya başçıları Avropa Parlamentinin Azərbaycanla bağlı iftira xarakterli bu qətnaməsini qətiyyətlə pisləyirik.

Tədbirdə, eyni zamanda, diqqətə çatdırılıb ki, Avropa Parlamentinə ünvanlanmış bəyanatda birgə iradə ifadə edilib, Azərbaycana qarşı qəbul olunmuş bu ədalətsiz qətnamənin ləğvi tələb olunub. Bildirilib ki, İkinci Qarabağ müharibəsindən sonra bölgədə sülhə, yenidənqurmaya və birgəyaşayışa töhfə verməyə çalışmaq əvəzinə ədalətsiz yanaşmaların davam etdirilməsi qəbuledilməzdir.

Dünya ictimaiyyətinin Azərbaycanın haqlı iddialarını – ədaləti dəstəkləyən dövlətlərə və beynəlxalq qurumlara təşəkkürünü ifadə edən QMİ-nin sədri şeyxülislam Allahşükür Paşazadə bildirib ki, bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının Pakistanda keçirilən tədbirində Ermənistanın Azərbaycana təcavüzünə dair qəbul olunmuş 4 qətnamə bütün dünya üçün bəşəri ədalət nümunəsidir. Həmin sənədlərdə, özəlliklə, işğal dövründə Azərbaycan ərazilərindəki İslam tarixi və mədəni abidələrinin, ziyarətgahlarının dağıdılması, talan edilməsi, oğurlanması, qanunsuz yerdəyişməsi və ya mənimsənilməsi, eləcə də bu obyektlərə qarşı vandallıq aktlarının törədilməsi qətiyyətlə pislənilib, yenicə azad olunmuş ərazilərdə yerləşən məscidlərin Ermənistan tərəfindən təhqir olunması şiddətlə qınanılıb. Qətnamədə xüsusilə Azərbaycanın ona dəymiş zərərə görə təzminat tələb etmək haqqı, Ermənistanın isə bu təzminatı ödəmək məsuliyyəti təsdiq olunub.

Vurğulanıb ki, ermənilər Qarabağda onlara məxsus olmayan tarixi-mədəni irsin guya məhv edilməsi ilə bağlı beynəlxalq aləmə yaydıqları dezinformasiyadan uzaqlaşaraq, işğal dövründə Qarabağ torpaqlarında və vaxtilə Azərbaycan torpaqlarında yaradılan indiki Ermənistanda azərbaycanlılara məxsus bütün tarixi, mədəni və dini irsi nə üçün məhv etdiklərinə dair sualları cavablandırmalı, 4 minə yaxın əsir, itkin düşmüş azərbaycanlının taleyinə aydınlıq gətirməlidirlər. Azad olunmuş ərazilərimizdə bu gün kütləvi məzarlıqlar aşkar olunur, üstü açılmamış cinayətlərin izləri üzə çıxır. Azad olunmuş ərazilərimizin ermənilər tərəfindən minalanmış vəziyyətdə olması, yandırılmış torpaq siyasəti kimi müharibə cinayəti törədilməsi səbəbindən yerli əhalinin doğma torpaqlara qayıdışı yubanır, yüzdən artıq mülki insan minalara düşərək ya həlak olur, ya ömürlük əlil qalır. Təəssüflər olsun ki, bütün bu hadisələrə Erməni Apostol Kilsəsi nəinki susur, qınamır, əksinə, revanşizm əhval-ruhiyyəsini daha da alovlandırır. Avropa Parlamenti isə nüfuzlu beynəlxalq qurum olaraq, heç şübhəsiz ki, məhz bu reallıqlara dair öz prinsipial mövqeyini nümayiş etdirməlidir.

Sonra Azərbaycandakı dini konfessiyaların rəhbərlərinin Avropa Parlamentinin qərəzli qətnaməsinə etiraz bəyanatı səsləndirilib.

# MARNEULİDƏ “GÜRCÜSTAN İSLAM ARAŞDIRMALAR MƏRKƏZİ” FƏALİYYƏTƏ BAŞLAYIB

Gürcüstanda yeni qurum – “Gürcüstan İslam Araşdırmalar Mərkəzi” (GİAM) təsis edilib. Bu münasibətlə Marneulidə keçirilən təqdimat mərasimində Gürcüstan Müsəlmanları İdarəsinin, Qafqaz Müsəlmanları İdarəsinin Gürcüstan üzrə nümayəndəliyinin, İranın bu ölkədəki səfirliyinin mədəniyyət şöbəsinin əməkdaşları, elm, ictimaiyyət və din xadimləri iştirak ediblər.

Tədbirdə çıxış edənlər cəmiyyətdə belə elmi mərkəzlərin mövcudluğunun vacibliyindən danışıb, yeni fəaliyyətə başlayan GİAM-a uğurlar arzulayıblar.

Mərkəzin rəhbəri hacı Fariz Rəcəbov qurumun fəaliyyət istiqamətləri barədə məlumat verib. O bildirib ki, mərkəz əsasən dörd istiqamətdə fəaliyyət göstərəcək. İlk olaraq GİAM elmi mərkəz kimi məzhəblər və dinlər arasında araşdırmalar aparacaq, seminar və simpoziumlar təşkil edəcək. İslam sahəsində yeni media qurumunun yaradılması, elmi səviyyədə dərgi və jurnalların çap olunması və elmi portal hazırlanması nəzərdə tutulub.

GİAM müstəqil qurum olaraq digər elmi və dini təşkilatlarla da əməkdaşlıq edəcək.



# DİNİ KONFESSİYALARIN RƏHBƏRLƏRİ AVROPA PARLAMENTİ TƏRƏFİNDƏN QƏBUL OLUNMUŞ ANTİAZƏRBAYCAN QƏTNAMƏ İLƏ BAĞLI BİRGƏ BƏYANAT YAYIBLAR



Azərbaycanda fəaliyyət göstərən müsəlman, pravoslav, alban-udi və yəhudi konfessiyalarının rəhbərləri 2022-ci ilin martın 10-da Avropa Parlamenti tərəfindən qəbul olunmuş antiazərbaycan qətnamənin qəbul edilməsi ilə bağlı birgə bəyanatla çıxış ediblər.

Bəyanatda deyilir: "Biz, Azərbaycanda fəaliyyət göstərən müsəlman, pravoslav, alban-udi və yəhudi konfessiyalarının rəhbərləri dindarlarımızın arzu və iradəsini ifadə edərək, 2022-ci ilin martın 10-da Avropa Parlamenti tərəfindən qəbul olunmuş antiazərbaycan qətnamə bağlı birgə bəyanatla çıxış edərək dərin narahatlığımızı bildirir, göstərilən sənədin ikili standartlara və islamofobiya meyillərinə məruz qalan , ermənipərəst siyasəti müdafiə edən mövqenin ifadəsi kimi dəyərləndiririk. Birmənalı şəkildə bildiririk ki, qətnamə mətnində yer almış fikirlər yanlış və böhtan xarakteri daşıyır və tamamilə qəbuledilməzdir.

Nəinki Avropa Parlament nümayəndələri, bütün dünya bilməlidir ki, Ermənistandan fərqli olaraq Azərbaycanda, onun paytaxtı Bakıda və bölgələrdə müxtəlif millətlərin və dinlərin nümayəndələri, o cümlədən minlərlə erməni əsilli vətəndaşlar sülh və əmin-amanlıq şəraitində dinc yaşayır, Bakının mərkəzində erməni kilsəsi və onun kitabxanası lazımi şəraitdə saxlanılır və dövlət tərəfindən tarixi-dini abidə kimi qorunur. Bununla belə, Azərbaycanın 30 ilə yaxın müddətdə işğal olunmuş ərazilərində məscidlər, məbədlər, qəbiristanlıqlar, tarixi abidələr, muzeylər, kitabxanalar dağıdılıb talan edilib, qədim Qafqaz Albaniyasına məxsus xristian kilsələri və Rus Pravoslav kilsələri özününküləşdirilib, məscidlər tövləyə çevrilib, orada İslam dinində haram sayılan heyvanlar saxlanılaraq bütün İslam dünyasına həqarət olunub.

Biz, Azərbaycandakı müxtəlif etnik və dini icmaların nümayəndələri Qarabağ torpaqları azad edildikdən sonra həmin ərazilərə səfərlərimiz zamanı orada Ermənistan tərəfindən tarixi, və mədəni abidələrə, xüsusən müsəlman məscidlərinə və mövcud olmuş infrastruktura Ermənistan tərəfindən törədilmiş vandalizmin, qədim alban xristian və pravoslav kilsələrinə qarşı qriqorianlaşdırma siyasətinin həyata keçirildiyinin canlı şahidləriyik.

Sizə yaxşı məlumdur ki, Ermənistan 30 ilə yaxın müddət ərzində BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri, Cenevrə Konvensiyası, Helsinki Yekun Aktının əsas müddəalarını kobud şəkildə pozaraq, Azərbaycanın dünya birliyi tərəfindən tanınmış ərazisinin 20%-ni hərbi işğala məruz qoymuş, bir milyondan artıq azərbaycanlı Ermənistandakı və Qarabağdakı doğma ocaqlarından didərgin düşərək qaçqın və məcburi köçkün taleyini yaşamağa məcbur olmuşlar.

Ermənistan öz ərazisindəki tarixi Azərbaycan dini abidələrini, İrəvan məscidləri olan "Şah Abbas", "Sərdar", "Hacı Novruz Əli" və digər mədəni-mənəvi irs nümunələrini, nadir memarlıq abidələrini tamamilə dağıdıb, İrəvanın mərkəzində yeganə salamat qalan "Göy məscid"in orada "baş verən" yanğından sonra memarlıq xüsusiyyətlərini qəsdən dəyişdirmişdir. Azərbaycanlılara məxsus mədəni-mənəvi irsin dağıdılması ilə bərabər Ermənistan, Şuşadakı "Vəftizçi Yəhya" pravoslav kilsəsini, digər bölgələrdəki qədim alban kilsələrini qəsb edib, mənşəyini dəyişdirərək qriqorianlaşdırıb, Xocavənd pravoslav kilsəsini tamamilə məhv etmişdir.

Azərbaycan beynəlxalq hüquq normalarına uyğun olaraq öz ərazi bütövlüyünü bərpa etdikdən sonra erməni tərəfi bütün dünyaya aşılamağa çalışır ki, guya onlar Azərbaycan tərəfindən təcavüzə məruz qalmışlar. Əslində isə keçmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konflikti qonşu ölkənin ərazisini işğal etmək məqsədilə Ermənistan tərəfindən başlanmış və onlar bu münaqişənin müsəlman - xristian qarşıdurması olması barədə həqiqətə uyğun olmayan yalanlar yayaraq, özlərini məzlum xalq kimi təqdim edir, bununla da xristian aləminin təəssübkeşliyini qazanmağa çalışır. Təəssüf ki, öz işğalçı niyyətlərini, özgə torpaqlarına ərazi iddialarını ört-basdır etmək üçün erməni təbliğatı müxtəlif vasitələrdən, o cümlədən dini amildən də fəal surətdə istifadə etməkdədir.

Buna görə də biz, Zati-Müqəddəsləri Roma Papası Fransisk, Zati-Müqəddəsləri Moskva və bütün Rusiya Patriarxı Kirill, digər dini liderlərə və beynəlxalq təsisatlara müraciət edərək din xadimlərindən ibarət nümayəndə heyətlərini işğaldan azad olunmuş torpaqlarımızda erməni vandalizminin dəhşətli nəticələrini öz gözləri ilə görmək məqsədilə Azərbaycana səfərə dəvət etmişik.

Erməni işğalı nəticəsində minlərlə tarix və mədəniyyət abidələri, kitabxanalar, mədəniyyət mərkəzləri, yaşayış binaları, məktəblər, muzeylər, sənət qalereyaları və teatrlar, ziyarətgahlar və qəbiristanlıqlar məhv edilmiş və talan olunmuşdur. Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində rəsmi qeydiyyatda olmuş 67 məsciddən 64-ü tamamilə dağıdılmış, 3-ü isə acınacaqlı vəziyyətdədir. Bir vaxtlar inkişaf etmiş Azərbaycanın inzibati mərkəzləri xarabalıqlara çevrilmişdir. Hazırda işğaldan azad olunmuş ərazilərimizə səfər edən xarici müşahidəçilər bu məntəqələri "ruhlar şəhəri" və ya "Azərbaycanın Xirosiması" adlandırmışlar.

İşğalçı Ermənistan dövlətin vandalizm aktlarının əsas məqsədi "böyük Ermənistan" xülyası ilə azərbaycanlıların əzəli torpaqlarında həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı məhv etmək olmuşdur.

İndiki Ermənistan ərazisində və Azərbaycanın işğaldan azad olunmuş ərazilərində insanlıq və mülkiyyət əleyhinə olan cinayətlərə, mədəni irsin dağıdılmasına görə Ermənistan məsuliyyət daşımalı və Avropa Parlamentinin qərəzli qətnaməsində qeyd edildiyi kimi cəzalandırılmalıdır. Ermənistanın xalqımıza məxsus abidələri dağıtması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasının tələblərinə ziddir. Ermənistan tərəfindən Azərbaycan xalqının mədəni irsinin məhv edilməsinə və saxtalaşdırılmasına yönəlmiş, beynəlxalq sənədlərdə bəşəri cinayət kimi qiymətləndirilən bu əməllər bütün bəşər mədəniyyətinə qarşı təcavüzdür və Avropa Parlamenti tərəfindən qətiyyətlə pislənməlidir.

Təəssüflə qeyd etməliyik ki, Ermənistan tərəfindən 1992-ci ildə Azərbaycanın Xocalı şəhərində 63-ü uşaq, 106-sı qadın, 70-i ahıl olmaqla 613 nəfər günahsız insanın vəhşicəsinə qətlə yetirildiyi, o cümlədən 8 ailənin tamamilə məhv edildiyi, bu şəhərin yerlə-yeksan olduğu soyqırımına avropalı parlamentarilər hüquqi qiymət vermək haqda düşünmürlər və bu genosidin günahkarları hələ də mühakimə olunmayıblar və onların bəziləri, hətta Ermənistanda rəhbər vəzifələrdə olmuş şəxslər, bu dəhşətli cinayətdə iştirak etdikləri ilə qürur duyduqlarını bildirirlər. Buna görə də, erməni hərbi-siyasi rəhbərliyi "Yeni torpaqlar naminə yeni müharibələr", "Qarabağ Ermənistandır" deyərək öz xalqını işğalçılığa sürükləyəndə, II Dünya müharibəsi zamanı alman faşistləri ilə sıx əməkdaşlıq edən, erməni rassist hərəkatı olan "tsexakron" ideologiyasının banisi Njde-Qareqin Ter Arutunyanın xatirəsini əbədiləşdirərək ona İrəvanda heykəl ucaldılan zaman Avropa Parlamenti öz səsini ucaltmadı və Ermənistan rejimi öz qəsbkarlıq əməllərinə dəstək almış oldu və indi də Azərbaycana qarşı öz təxribatlarını davam etdirərək revanşizm şüarları ilə çıxış etməkdədir.

1982-ci ildə ABŞ Dövlət departamentinin aylıq bülletenində ilk dəfə "erməni terrorizmi" ifadəsi rəsmi ifadə olunmuşdur. Sırf nasist-terrorçu mənəviyyatına əsaslanan "Armenakan", "QNÇAK", "Daşnaksütyun", "ASOA", "ASALA" və digər bu kimi erməni terror təşkilatları dünyanın müxtəlif bölgələrində, o cümlədən bir sıra Avropa ölkələrində təşkilatlanaraq Azərbaycan və Türkiyəyə qarşı öz məkrli zorakılıq siyasətlərindən əl çəkmirlər.

Mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda mövcud olan tarixi-dini abidələr bu ölkədə yaşayan xalqların milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini və adət-ənənələrini özündə təcəssüm etdirən müqəddəs məkanlardır. Bu irs nümunələri daim Azərbaycan dövləti tərəfindən qayğı ilə qorunur, məscidlərimiz, kilsələrimiz və sinaqoqlarımız təmir edilir, yeniləri inşa olunur. Multikultural ənənələrə sadiq olan Azərbaycan dövləti bu siyasəti prioritet istiqamət kimi dəyərləndirir və nəinki Azərbaycanda, hətta dünyanın müxtəlif bölgələrində, Vatikanda "katakombaların", Fransada Roma kilsələrinin, Strasburqda qədim "vitrjların", Serbiyada tarixi abidələrin, məscid və kilsələrin bərpasına əvəzsiz töhfələr vermişdir.

Bunun müqabilində erməni yalanına uyan beynəlxalq qurum – Avropa Parlamenti qərəzli antiazərbaycan qətnaməsini qəbul edir və ölkəmizi "erməni mədəni irsini məhv etməkdə" günahlandıraraq cəzalandırmağa çağırır.

Biz, Azərbaycandakı dini konfessiya rəhbərləri Avropa Parlamentində "Dağlıq Qarabağda mədəni irsin məhv edilməsi haqqında" adlı qərəzli qətnamənin lehinə səs vermiş 635 parlamentarilərə öz narazılığımızı və bu hadisəni təəssüflə qarşıladığımızı bildiririk. Bu kimi yanaşmalar Avropa Parlamentinin ikili standartlara əsaslanaraq birtərəfli erməniperəst mövqeyə malik olması qənaətini yaradır. Biz, Azərbaycanda erməni qəsbkarları və terrorçuları tərəfindən yüz ildən artıq müddətdə azərbaycanlılara və burada yaşayan digər millətlərin nümayəndələrinə qarşı törədilən qətliamlara, mədəni-mənəvi irsimizin dağıdılmasına siyasi-hüquqi qiymət verməyə, həqiqəti yanlışdan seçərək ədalətin yanında olmağa və bu qərəzli qətnaməni ləğv etməyə çağırırıq.

**Şeyxülislam Allahşükür Paşazadə,**
Qafqaz Müsəlmanları İdarəsinin sədri

**Arximandrit Aleksiy,**
Rus Pravoslav Kilsəsinin
Bakı və Azərbaycan Yeparxiyasının katibi

**Melih Yevdayev,**
Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri

**Robert Mobili,**
Azərbaycandakı Alban-Udi Xristian Dini İcmasının sədri

**Aleksandr Şarovski,**
Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri




2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İllərin keşməkeşli sınaqlarından üzüağ çıxmış, bir əsrdə iki dəfə müstəqilliyini elan etməklə heç bir buxovu qəbul etmədiyini göstərmiş Azərbaycan xalqı bu müharibədə də mərdliyi və qəhrəmanlığı ilə bütün dünyanın diqqətini bir daha öz üzərinə çəkdi. Əminliklə demək olar ki, bu məğrurluğun əsasında xalqımızın ədalətsizliklə qətiyyən razılaşmaması, özünün bütün sülhpərvər yönləri ilə yanaşı, hərbi qüdrətini məhz məqamında dəmir yumruğa çevrilməklə göstərməsi, dolayısı ilə "mövzu Vətəndirsə, qalan hər şey təfərrüatdır" deyə bilməsi durur.

İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.

## *Abbasov Nihad Mövlud oğlu*

Şəhid Abbasov Nihad Mövlud oğlu 2000-ci il iyulun 25-də Qax rayonunun İlisu kəndində dünyaya göz açıb. O, 2007-ci ildə Nizami Gəncəvi adına İlisu kənd orta məktəbinin 1-ci sinfinə gedib, 2018-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. İdmana böyük marağı ilə seçilən qəhrəmanımız yüngül atletikanın 100 metrə qaçış növü üzrə zona birinciliyi qazanıb. O, 3 il ərzində rayonun "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü komandası ilə Respublika çempionatının zona yarışının qalibi olub. Nihad həm də qaydasız döyüş üzrə Azərbaycan çempionatının bir çox yarışlarında da iştirak edib.



O, 2018-ci ilin iyulunda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Qax rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci ilin yanvar ayında hərbi xidmətini uğurla başa vurub.

2020-ci ilin 12 iyulunda düşmənin təxribatı nəticəsində Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində gedən şiddətli döyüşlər bir çoxu kimi Nihadın da həyatının dönüş nöqtəsi olub. Milli Qəhrəman general-mayor Polad Həşimovun şəhadətindən sonra o, SHXÇDX-nin Qax rayon şöbəsinə könüllü olaraq xidmət etmək üçün müraciət edib.

Lakin 1 aydan çox vaxt keçsə də, hər hansı bir cavabın çıxmamasını görən qəhrəmanımız sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində xidmətə başlayıb. Müddətdən artıq hərbi qulluğunun ilk ayı təlimlərdə iştirak edib, orada verilən tapşırıqların öhdəsindən uğurla gəlib.

Təcavüzkar Ermənistanın sentyabrın 27-də əl atdığı növbəti qanlı təxribatına cavab olaraq ordumuzun başladığı əks-hücum əməliyyatında Nihad xidmət etdiyi hərbi hissənin tərkibində döyüşlərə qatılıb. 27 sentyabrdan 9 oktyabradək Tərtər rayonunun Suqovuşan qəsəbəsi istiqamətində gedən döyüşlərdə iştirak edib və Suqovuşanı düşmən tapdağından azad edən qəhrəmanlarımızdan biri kimi adını tarixə yazıb. Nihad oktyabrın 9-da Ağdərə istiqamətində gedən döyüşlər zamanı şəhid olur. Ancaq şəhidimizin nəşini döyüş meydanından çıxarmaq olmur. Şəhidimizin nəşi oktyabrın 23-də döyüş meydanından götürülüb, ailəsinə təhvil verilib. O, Oktyabrın 24-də İlisu kəndində dəfn edilib.

Şəhidimiz subay idi.

Cəsarəti və şücaəti ilə adını vətən tariximizin şanlı səhifəsinə əbədi yazan əsgər Abbasov Nihad Mövlud oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

## *Abbasov Səxavət Rizvan oğlu*

Şəhid Abbasov Səxavət Rizvan oğlu 2000-ci il aprelin 25-də Abşeron rayonunun Xırdalan şəhərində anadan olub. O, 2006-cı ildə Xırdalan şəhər 1 nömrəli orta məktəbin 1-ci sinfinə gedib, 2017-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. Səxavət uşaq yaşlarından idmana böyük həvəs göstərib, güləşin yunan-roma növü ilə məşğul olub. Şəhidimiz həm də musiqi bacarığı ilə yadda qalıb. O, 2018-ci ilin aprelində SHXÇDX-nın Abşeron rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Səxavət Silahlı Qüvvələrin Tovuz rayonu ərazisində yerləşən "N" saylı hərbi hissəsində xidmət edib.



Səxavətin əsgərliyini bitirib evə gəlməyinin bir ili tamam olmamış Tovuz döyüşləri başlayır. O, SHXÇD-ə müraciət edərək könüllü yazılır. Vətən müharibəsi başladıqdan sonra sentyabrın 29-da döyüşlərə yollanıb. Səxavətin döyüş yolu cəbhənin cənub istiqamətindən başlayıb. O, Füzuli, Cəbrayıl və Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib. Bir çox ərazilərimizin işğaldan azad edilməsində şəxsi şücaət göstərib.

Şəhidimizin anası Maisə xanımın sözlərinə görə, Səxavət evin tək övladı olduğu üçün onun döyüşlərə yollanmasına razı olmayıblar. Ancaq o, buna etirazını bildirərək müharibəyə gedib. Şəhidimiz yaxınları ilə sonuncu dəfə oktyabrın 3-də danışıb. Qəhrəmanımız oktyabrın 21-də Ərgünəş yüksəkliyi uğrunda gedən döyüşlərdə yaralı əsgər yoldaşı Rəşad Mehdiyevi xilas edərkən qəhrəmancasına şəhid olub.

Şəhid Abbasov Səxavət Xırdalan şəhərində uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Döyüş tapşırıqlarını yerinə yetirərkən mərdlik və igidlik göstərərək adını tariximizə əbədi yazan əsgər Abbasov Səxavət Rizvan oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

## *Abdullayev Hasil Miryusif oğlu*

Şəhid Abdullayev Hasil Miryusif oğlu 1985-ci il may ayının 25-də Beyləqan rayonunun Dünyamalılar kəndində dünyaya gəlib. O, 1991-2002-ci illərdə Əlibala Şirinov adına Dünyamalılar kənd 1 nömrəli tam orta məktəbində təhsil alıb. Hasil uşaqlıqda həm idmanla məşğul olur, həm də dərslərini yaxşı oxuyurdu. Sərbəst güləş üzrə yeniyetmə və gənclər arasında keçirilən çempionatlarda birincilik qazanan Hasil 2002-ci ildə atasını itirir. Həmin il ali məktəblərə qəbul imtahanında da uğur qazana bilmir. 2003-cü ilin iyulunda Beyləqan rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan Hasil Daxili Qoşunların Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində hərbi xidmətdə olub. O, hərbi xidmətini müvəffəqiyyətlə başa vurduqdan sonra doğma kəndinə qayıdıb və idmanla məşğul olub. Bir neçə dəfə ölkə üzrə yarışlarda nailiyyətlər əldə etməsinə baxmayaraq, Hasilin hərbi sahəyə marağı onu yenidən bu çətin və məsuliyyətli işə qaytarıb. O, 2010-cu ildə sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Sumqayıt şəhərində yerləşən "N" saylı hərbi hissədə xidmətə başlayıb. Orada qulluğu dövründə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalı ilə təltif edilib.



2015-ci ildən isə xidmətini Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissənin kəşfiyyat taborunda davam etdirib. 2016-cı ilin aprelində düşmən təxribatına cavab olaraq başlayan 4 günlük müharibədə şanlı ordumuzun qəhrəman döyüşçüləri arasında Hasil də var idi. Aprel döyüşlərinin özəlliyi həm də ondan ibarət idi ki, ön xəttə hücumu təşkil edənlər yalnız peşəkar hərbçilər və kəşfiyyat qrupları idi. Hasilin də təmsil olduğu kəşfiyyat qrupu düşmənin postlarına daxil olaraq Lələtəpəni fəth ediblər. Lələtəpənin işğaldan azad olunmasından sonra o, "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalına layiq görülüb. 2016-cı ildə Silahlı Qüvvələrin Baş Qərargah rəisinin əmri ilə ona "gizir" rütbəsi verilib. Sonra isə kəşfiyyat manqasının komandiri kimi məsuliyyətli bir iş tapşırılıb. Buna görə Hasil Silahlı Qüvvələrin təlim və tədris mərkəzində (TTM) 27.07. 2016-cı il tarixindən 24.09. 2016-cı il tarixinə qədər "fəaliyyət göstərən qoşun kəşfiyyatı taqım komandirinin müavini-qrup komandiri" kursunu bitirib. Kursu bitirdikdən sonra yenidən xidmət etdiyi hərbi hissəyə təyinat alıb və kəşfiyyat manqasının komandiri işləyib. Xidmət etdiyi illərdə əldə etdiyi nailiyyətlərə görə, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli və "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalları ilə təltif edilib.

Peşəkarlığı və yüksək döyüş hazırlığı ilə seçilən Hasil öz qrupu ilə döyüşə hər zaman hazır idi. O, növbəti tapşırığını 2020-ci il sentyabrın 26-da gecə alır. Müharibənin ilk günü aldığı tapşırığı layiqincə yerinə yetirib cəmləşmə məntəqəsinə qayıdandan sonra artilleriyamız onun verdiyi koordinatları atəşə tutur. Bunun ardınca döyüş mövqeyinə çıxan Hasilin qrupu düşmənin müdafiə səddini keçərək əsas döyüş postlarından birini ələ keçirir. Hasilin igidlik və məharətlə vuruşması onun qrupunun üzvlərini də ruhlandırıb. Döyüş yoldaşları deyir ki, oktyabrın 2-də Füzuli rayonunun Horadiz kəndi ərazisində komandirimiz polkovnik-leytenant Orxan Əkbərov vurulandan sonra bizdə bir az çaşqınlıq yaranmışdı, amma Hasil: "İrəli, ancaq irəli", - deyə qışqırırdı. Elə həmin gün açıq döyüşdə Hasillə üz-üzə gəlməkdən qorxub pusquda gizlənmiş mənfur düşmən onu snayperlə baş nahiyəsindən vurub.

O, döyüş meydanından çıxarılıb hospitala çatdırılıb, daha sonra Bakıya aparılıb. Qəhrəmanımız Mərkəzi Hərbi Klinik Hospitalda iki dəfə əməliyyat olunub. Yaxınlarının sözlərinə görə, əməliyyatdan sonra oyanan Hasil deyirmiş: "Axı biz onları təmizləmişdik. Məni haradan vurdular? Silahımı gətirin, döyüşə getməliyəm". Həkimlərin səylərinə baxmayaraq, onu xilas etmək mümkün olmur. Hasil oktyabrın 15-də şəhidlik zirvəsinə ucalır. O, Dünyamalılar kəndində torpağa tapşırılıb.

Hasil ailəli idi: Səhər adlı qız, Miryusif adlı oğul övladı var.

İgidliyi və qəhrəmanlığı ilə adını vətən tariximizin şanlı səhifəsinə yazan gizir Abdullayev Hasil Miryusif oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda","Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

Hazırladı: **Ramil HİKMƏT**

# Kim üzr istəməlidir?

## (II hissə)

*Uzun müddətdir, belə bir sərlövhəli yazı yazmaq və ona konkret faktlarla cavab vermək istəyirdim. Belə ki, Azərbaycan və Türkiyə dövlətlərinə, eləcə də xalqımıza patoloji nifrət bəsləyən cəllad xislətli və qatı millətçi Zori Balayan Ermənistanın Azərbaycan Respublikasına qarşı növbəti əsassız torpaq iddiaları ilə bağlı çıxışlarının birində uydurma erməni qırğınlarından bəhs etmişdi. O, buna görə azərbaycanlıların ermənilərdən üzr istəmələrini təklif və hətta tələb etmişdi. Lakin obyektiv araşdırmalar aparan tarixçi alimlərin əsərlərini oxuduqca məlum olur ki, keçən əsrin əvvəllərindən əzəli Azərbaycan torpaqlarında dövlət yaratmaq istəyən ermənilər azərbaycanlılara qarşı əsl soyqırımı törədiblər. Qadınlar, uşaqlar, yaşlılar da daxil olmaqla minlərlə günahsız insan azərbaycanlı olduğu üçün erməni faşistləri tərəfindən xüsusi amansızlıqla, qəddarcasına, işgəncələr verilərək qətlə yetirilmişdi. Bu oxuduqlarımdan əlavə, yaşlı nəslin nümayəndəsi, 1988-ci ildən ermənilərin Azərbaycana qarşı yeni torpaq iddiaları zəminində azərbaycanlıları öz ata-baba torpaqlarından silah gücünə çıxararkən törətdikləri vəhşiliklərin bilavasitə şahidi kimi həmişə fikirləşmişəm ki, bu haqsızlıqlar haqqında eşidən, bilən və görən normal düşüncəli ermənilər gec-tez azərbaycanlılardan üzr istəyəcəklər. Beləliklə, erməni şovinistlərinin törətdikləri vəhşiliklərlə bağlı məqalənin ikinci hissəsini oxucuların diqqətinə təqdim edirəm.*

**III Aktiv hərbi əməliyyatların aparılmadığı nisbi atəşkəs dövrü erməni vəhşilikləri.**

Bu dövrdə də ermənilər tərəfindən mülki Azərbaycan əhalisinə qarşı çoxsaylı vəhşiliklər törədilib. Qeyd edilən bəzi faktlar – erməni vəhşilikləri və terrorları xronoloji qaydada müharibə zonasından kənarda baş verdiyi və hərbçilərə deyil, mülki əhaliyə qarşı yönəldildiyi üçün bunları aktiv hərbi əməliyyatların aparılmadığı nisbi atəşkəs dövründə törədilənlər ilə birgə təqdim edirəm. Necə deyərlər, istisnalar qaydaları pozmur. Bunlardan ən alçaqcasına törədilənlərdən biri Bakı metrosundakı partlayışlardır. Belə ki, 1994-cü il martın 19-da və iyulun 3-də Bakı metropolitenində törədilmiş terror aktları nəticəsində ümumilikdə **27 nəfər həlak olmuş və 107 nəfər yaralanmışdır. Birinci terror aktı** 1994-cü il mart ayının 19-u saat 13:00-da "20 Yanvar" metrostansiyasında baş verib. Qatarın baş vaqonuna qoyulmuş saat mexanizmli, kustar üsulla düzəldilmiş bomba qatar stansiyada dayandıqdan sonra partlayıb. Partlayış nəticəsində **14 nəfər həyatını itirib, 49 nəfər isə yaralanıb.** Ölənlərin arasında terror hücumunun icraçısı Oktay Qurbanov adlı allahsız da var idi. Təəssüf ki, Azərbaycan Respublikasının Xalq artisti Rafiq Babayev də bu terrorun qurbanı oldu. İstintaqın gəldiyi qənaətə əsasən, terror aktının təşkilatçıları və təqsirləndirilənlər Ermənistanın xüsusi xidmət orqanları ilə əlaqələr qurmuş, 1992-ci ilin aprel-may aylarında 30 nəfər milliyyətcə ləzgi olan Azərbaycan vətəndaşı Ermənistanın Nairi rayonunun Lusakert qəsəbəsində yerləşən təlim-məşq bazasında xüsusi-terror təxribat hazırlığı keçmişdi. Ermənistan Milli Təhlükəsizlik Baş İdarəsi onların təşkilat kimi formalaşmasında, maliyyələşməsində və silahlanmasında yaxından iştirak etmişdir. İstintaq zamanı müəyyənləşdirilmişdi ki, **təxribatçılar təlimata uyğun olaraq, 20 Yanvar metrostansiyası ilə yanaşı, Bakının "Nizami" kinoteatrında, Heydər Əliyev Sarayında və Bakı Lampa zavodunda da partlayışlar törətməyi planlaşdırmışdılar.** Şükürlər olsun ki, bu terror hücumları alınmadı və günahsız insanlar ölmədilər. Azərbaycan hüquq-mühafizə orqanlarının əməkdaşları bu terrorçuları cəzasız qoymadı. Belə ki, terror aktı faktına görə 11 nəfər cəzalandırılmışdı (onlardan ikisi ölüm cəzasına (güllələnmə), digər 9 nəfər isə müxtəlif müddətə həbs cəzasına məhkum edilmişdi). 1994-cü ilin iyul ayının 3-də Bakı metrosunda **ikinci terror aktı törədildi.** Saat 20:30-da "28 May" metrostansiyasından çıxıb "Gənclik" metrostansiyası istiqamətində hərəkət edən qatarın platformaya çatmasına 500 metr qalmış, ikinci vaqonda partlayış baş vermiş, nəticədə **13 nəfər həlak olmuş, 58 nəfər isə yaralanmışdı.** "28 May" və "Gənclik" metrostansiyaları arasında partlayışın təşkil edilməsi ilə əlaqədar Moskvada yaşayan Azərbaycan vətəndaşı Azər Aslanov həbs edilmiş, 1997-ci ilin 29 noyabr tarixində Azərbaycana ekstradisiya olunmuşdu. O, 1998-ci ildə verdiyi ifadələrində bildirmişdi ki, Bakı metropolitenində teror aktı törətmək göstərişini erməni əsirliyində olarkən Z.Balayandan alıb. Məhkəmənin hökmü ilə Azər Aslanov ömürlük həbs cəzasına məhkum edilmiş, **Allah günahsız axıdılan qanları yerdə qoymamışdı.**

Ermənilərin allahsızlıqlarını, vəhşiliklərini bir daha göstərmək və kimlərin üzr istəməli olduqlarını aydınlaşdırmaq üçün yadımda qalan və KİV-də yayımlanan, lakin bəzən xronoloji olaraq bu III dövrdə (aktiv hərbi əməliyyatların aparılmadığı nisbi atəşkəs dövrü) baş verməyən, mülki əhaliyə qarşı yönəlmiş digər erməni terrorlarını təqdim edirəm.

1) 16.09.1989. "Tbilisi-Bakı" sərnişin avtobusu partladılıb. **5 nəfər həlak olub, 25 nəfər yaralanıb.**

2) 10.08.1990. A.Avanesyan və M.Tatevosyan tərəfindən "Tbilisi-Ağdam" sərnişin avtobusu partladılıb. **20 nəfər həlak olub, 30 nəfər yaralanıb.**

3) 30.05.1991. "Moskva-Bakı" sərnişin qatarı partladılıb. **11 nəfər həlak olub, 22 nəfər yaralanıb.**

4) 31.06.1991. Yenə "Moskva-Bakı" sərnişin qatarı partladılıb. **16 nəfər həlak olub, 20 nəfər yaralanıb.**

5) 08.01.1992. Krasnovodsk-Bakı istiqaməti üzrə hərəkət edən sərnişin daşıyan gəmi-bərə partladılıb. **25 nəfər həlak olub, 88 nəfər yaralanıb.**

6) 28.02.1992. "Kislovodsk-Bakı" sərnişin qatarı partladılıb. **11 nəfər həlak olub, 18 nəfər yaralanıb.**

7) 01.02.1993. Bakı Dəmir Yolu Vağzalında sərnişin vaqonu partladılıb. Həlak olan və yaralanan olmasa da, **dövlətə külli miqdarda maddi ziyan dəyib.**

8) 09.02.1993. Xudat stansiyasında yük vaqonu partladılıb. Həlak olan və yaralanan olmasa da, **dövlətə külli miqdarda maddi ziyan dəyib.**

9) Erməni allahsızları uzun illər ərzində 400.000-dən çox əhalisi olan Naxçıvan Muxtar Respublikasını qaz blokadasında saxlayıb **günahsız uşaq, qoca və qadınların tərora bərabər əziyyət çəkmələrinə, xəstələnmələrinə, həyatlarının qısalmalarına səbəb olublar.**

10) Həmin erməni vəhşiləri 30 ilə yaxın Sərsəng su anbarından ziyankar formada istifadə etməklə **azərbaycanlılara qarşı ekoterror törədiblər və s.**



***Gəncə şəhərində erməni vəhşiliyinin nəticəsi***

Günahsız insanların əziyyət çəkməsini, haqsızlıqları, terroru və s. bunlar kimi Allaha xoş getməyən işləri həmişə ağrılı qəbul edən bəndə kimi son 35 ildə (1988-2022-ci illər) şahidi olduğum və ya KİV-dən məlumat aldığım erməni vəhşiliklərinə çox misal çəkə bilərəm. Lakin məncə, bu deyilənlər də erməni allahsızlarının iç üzünü açmağa kifayət edir. Beləliklə, azərbaycanlılara və Azərbaycan dövlətinə qarşı törədilən erməni terrorları nəticəsində **azı 88 nəfər mülki əhali həlak olub və 203 nəfər yaralanıb,** minlərlə mülki əhali bu terrorlardan böyük əziyyətlər çəkib. **Azərbaycan dövlətinə isə külli miqdarda maddi ziyan dəyib. Sual olunur: kim üzr istəməlidir?**

Aktiv hərbi əməliyyatların aparılmadığı 1994-2020-ci illəri əhatə edən nisbi atəşkəs dövründə KİV-dən aldığım məlumatlara əsasən yuxarıda qeyd edilən mütəşəkkil erməni vəhşilikləri – terrorları ilə yanaşı, ermənilərin azərbaycanlılara qarşı patoloji nifrəti nəticəsində **Azərbaycan-Ermənistan sərhədinə və döyüş təmas xəttinə yaxın ərazilərdə yaşayan mülki əhali arasında erməni əsgərlərinin gülləsi ilə və mina partlayışı nəticəsində çoxsaylı ölüm halları baş verib. 27 ili əhatə edən aktiv hərbi əməliyyatların aparılmadığı nisbi atəşkəs dövründə mülki azərbaycanlı əhalinin erməni allahsızları tərəfindən öldürülməsi faktlarının araşdırılması və təqdim olunmasının böyük bir mövzunun materialı olduğunu nəzərə alaraq bu işi, inşallah, gələcək fəaliyyətimiz üçün saxlamaq qərarına gəldim.** Lakin konkretlik üçün qısa bir faktı möhtərəm oxucuların nəzərinə çatdırıram. Mən əslən Qazax rayonunun Ermənistanla sərhəd kəndindənəm. Bizim kənddə təsərrüfat işləri ilə məşğul olan 2 mülki həmkəndlimin ermənilərin basdırdığı mina partlayışı, 1 nəfərin partlamamış hərbi sursatın partlaması, 2 nəfərin isə erməni gülləsi nəticəsində ölməsi mənə məlumdur. Azərbaycanda erməni kəndləri və digər yaşayış məntəqələri ilə sərhəddə yerləşən yaşayış məntəqələri çoxdur. Deməli olar ki, bu sərhəd yaşayış məntəqələrinin hər birində mülki azərbaycanlılar erməni terrorunun qurbanı olublar. **Bu günahsız mülki əhalinin ölümünə görə kim üzr istəməlidir?**

**IV. 44 günlük İkinci Qarabağ müharibəsi dövründəki erməni vəhşilikləri.**

Bu dövrdə erməni vəhşiləri müzəffər Azərbaycan ordusunun hücumları qarşısında dayana bilmirdilər. Azərbaycan ordusu hər gün irəlilədikcə ermənilər vəhşiləşirdilər. Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini, habelə elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgəyə aidiyyəti olmayan şəhər və rayonlarımıza raket və ağır artilleriya zərbələri endirirdilər. Belə ki, müharibə zonasından kənarda yerləşən Gəncə, Mingəçevir, Tərtər, Bərdə, Xızı və s. mülki əhali yaşayan yerlərə böyük dağıdıcı gücə malik raket zərbələri endirirdilər.

**Ermənilərin Gəncə vəhşilikləri.** 44 günlük Vətən müharibəsi dövründə Gəncə şəhəri oktyabrın 4-də, 5-də, 8-də, 11-də və 17-də Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif təyinatlı "Toçka-U", "Smerç", "SCUD" və digər raket qurğularından endirilən zərbələrə məruz qalıb. Nəticədə **6-sı uşaq olmaqla, 26 mülki şəxs həlak olub, 31-i uşaq olmaqla, 142 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alıb.** Münaqişə bölgəsindən kilometrlərlə kənar ərazilərin qadağan olunmuş kaset bombalarla hədəfə alınması nə beynəlxalq hüquqa, o cümlədən Ermənistanın 1993-cü ildə ratifikasiya etdiyi Cenevrə konvensiyalarına və onların əlavə protokollarına, nə müharibənin əxlaq kodeksinə, nə də, ümumiyyətlə, mənəviyyata uyğun idi. Bu ifadənin dəqiq definisiyası "alçaqcasına hücum"dur. Azərbaycan isə müharibənin ilk günündən heç bir halda mülki əhaliyə atəş açmır, yalnız legitim hərbi hədəfləri zərərsizləşdirir, qisasımızı döyüş meydanında alırdı. **Sual olunur: kim üzr istəməlidir?**

**Ermənilərin Bərdə vəhşilikləri.** Ermənilərin Bərdə terroru nəticəsində **21 nəfər həlak olub, 70 nəfər yaralanıb.** Ermənistanın təcavüzkar siyasətinin davamı olaraq, 2020-ci il oktyabrın 28-də saat 13 radələrində düşmənin silahlı birləşmələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə hər birinin içərisində 72 ədəd 9N235 saylı, ümumilikdə 144 bombacıq olan "Smerç" tipli əməliyyat-taktiki təyinatlı 9M525 qəlpəli böyük dağıdıcı qüvvəyə malik ballistik "claster" tipli 2 ədəd raket zərbəsinin endirilməsi **nəticəsində 5-i qadın olmaqla, 21 nəfər həlak oldu, 8-i uşaq, 15-i qadın olmaqla 70 şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri aldı.** Bundan başqa, raket zərbələrinin təsirindən 30-dan artıq mülki infrastruktur obyektinə, dinc sakinlərə məxsus 20-dən artıq fərdi yaşayış evinə və 22 nəqliyyat vasitəsinə xüsusilə külli miqdarda ziyan dəydi. **Bu günahsız insanların, xüsusi ilə də uşaqların öldürülməsinə görə kim üzr istəməlidir?**

**Elçin Bilaloğlu,**
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
Milli Onkologiya Mərkəzinin həkimi

# QISA QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini mart ayı ərzində də davam etdirmişdir.*

Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**1 mart** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay rayon Çərəcə kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayonunda "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;



**2 mart** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağsu şəhər 2 saylı tam orta məktəbində "Narkomaniya: səbəbləri və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Göygöl Gənclər evində "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda;

**3 mart** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Quba şəhər "Cümə" məscidində "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Azərbaycan Dövlət Aqrar Universitetində "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lerik Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Lerik rayon Heydər Əliyev Mərkəzində "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda;

**4 mart** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH, rayon Təhsil Şöbəsi və "Saatlı Gənclər Evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə Saatlı rayonu Orta Muğan kənd tam orta məktəbində "Erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Qızları təhsildən yayındırmağın hüquqi və mənəvi məsuliyyətləri" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Ucar RİH, rayon Polis Şöbəsi və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlər və narkomaniya" mövzusunda; DQİDK-nın təşkilatçılığı və Gəncə bölgəsinin din xadimlərinin iştirakı ilə Gəncə şəhərindəki İmamzadə ziyarətgah kompleksində "2022-ci ildə qarşıda duran vəzifələr" mövzusunda;

**9 mart** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş rayon Mərkəzi Kitabxanasında "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda;

**10 mart** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax şəhər T.İsmayılov adına 5 saylı tam orta məktəbində "Uşaqların humanizm və tolerantlıq ruhunda tərbiyəsinin mənəvi aspektləri" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Gədəbəy RİH, rayon Polis Şöbəsi və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlərə qarşı mübarizədə milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Naftalan şəhər 2 saylı orta məktəbdə "Dini radikalizm və narkomaniya ilə mübarizə" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Ucar rayon Gənclər və İdman İdarəsinin (GİI) birgə təşkilatçılığı ilə "Təhlükəsiz reproduktiv sağlamlıq davranışlarının və sağlam həyat tərzi vərdişlərinin formalaşdırılması" mövzusunda;

**11 mart** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Ucar rayon Çiyni kənd "Hacı Ağamirzə" məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH, İnsan Hüquqları üzrə Müvəkkilin Quba regional mərkəzi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Quba bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə rayonun Xucbala kəndində "Qızların təhsil almasının önəmi: dini qaynaqlar nə deyir?" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kollecinin birgə təşkilatçılığı ilə "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Gənclərin vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Yardımlı rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə "Narkomaniya: səbəbləri və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad RİH, Sabirabad Rayon GİI və rayon Təhsli Şöbəsinin birgə təşkilatçılığı ilə "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda;

**14 mart** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran şəhər Təhsil Şöbəsi, S.Kazımbəyov adına 6 saylı tam orta məktəb və GİI-nin birgə təşkilatçılığı ilə "İşıqlı gələcək üçün erkən nikaha yox deyək" mövzusunda;

**15 mart** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Tovuz rayon GİI-nin birgə təşkilatçılığı ilə rayon Heydər Əliyev Mərkəzində "Dini radikalizm və ekstremizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Cəbrayıl rayonu Cocuq Mərcanlı kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə Cocuq Mərcanlı kənd klubunda "Radikalizm və ekstremizm təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı rayon GİI-nin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlərə yox deyək" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH və Dövlət Təhlükəsizliyi Xidmətinin Saatlı rayon şöbəsinin birgə təşkilatçılığı ilə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göyçay rayonu Qaraman kənd tam orta məktəbində "Narkomaniyaya yox deyək!" mövzusunda;

**16 mart** – DQİDK, Daxili İşlər Nazirliyi, Suraxanı RİH və rayon Prokurorluğunun birgə təşkilatçılığı ilə B.Qulamoğlu adına 285 saylı tam orta məktəbdə "Narkomaniyaya yox deyək!" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı RİH, rayonun Polis və Təhsil şöbələrinin birgə təşkilatçılığı ilə "Dini fanatizm, radikalizm və ekstremizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Qusar RİH, İnsan Hüquqları üzrə Müvəkkilin Quba Regional Mərkəzi və Qusar rayon Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmləndirilməsindəki önəmi" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və İsmayıllı RİH-in birgə təşkilatçılığı ilə "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasında dini icmaların rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayon Heydər Əliyev Mərkəzində "Narkomaniya ilə mübarizə istiqamətində din xadimlərinin müxtəlif platformalarda söhbət və çıxışlarının təşkili" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir RİH və Yeni Azərbaycan Partiyası Kürdəmir rayon təşkilatının birgə təşkilatçılığı ilə "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda;

**17 mart** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Balakən rayonu M.Müşfiq adına Gərəkli kənd tam orta məktəbində "Novruz bayramı milli-mənəvi dəyərlərimizdən biridir" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Beyləqan Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Ələmdar Rzayev adına Dünyamalılar kənd 2 saylı tam orta məktəbində "Qızların təhsildən yayındırılmasının hüquqi və mənəvi məsuliyyəti" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir Dövlət Universitetinin birgə təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zərdab rayonu Məlikumudlu kənd tam orta məktəbində "Erkən nikahın və qohumlar arasındakı nikahın mənfi nəticələri" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Narkomaniya: səbəbləri və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göygöl rayonunda yerləşən N saylı hərbi hissədə; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, "Elin Səsi" Milli-Mənəvi Dəyərlərimizin Qorunması İctimai Birliyi və Şirvan Gənclər Evinin birgə təşkilatçılığı ilə Şirvan Gənclər Evində "Azərbaycan milli-mənəvi dəyərlər sistemində ailə dəyərlərinin rolu" mövzusunda;



**29 mart** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH, Dövlət Təhlükəsizliyi Xidmətinin Balakən rayon şöbəsi və Balakən Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Balakən şəhəri Nizami Gəncəvi adına 1 saylı tam orta məktəbdə "Dini fanatizm və ekstremizmin mahiyyəti, təhlükələri" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Qobustan RİH-in birgə təşkilatçılığı ilə Qobustan şəhər Vətən Müharibəsi Qəhrəmanı Elyar Vəliyev adına 2 saylı tam məktəbdə "Qızları təhsildən yayındırmağın hüquqi və mənəvi məsuliyyətləri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH, İnsan Hüquqları üzrə Müvəkkilin Quba regional mərkəzi və QMİ-nin Quba və Şabran bölgələri üzrə qazılıqlarının birgə təşkilatçılığı ilə "31 mart - Azərbaycanlıların soyqırımı günü"nün 104-cü ildönümü ilə əlaqədar şimal bölgəsinin din xadimlərinin iştirakı ilə ziyarət;

**30 mart** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qəbələ və Zərdab rayonlarında 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Göyçay RİH, rayon Polis Şöbəsi və QMİ-nin Göyçay rayonu üzrə səlahiyyətli nümayəndəliyinin təşkilatçılığı ilə Ramazan ayının başlanması ilə əlaqədar; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı Gənclər Evi sosial xidmət müəssisəsinin "31 mart - bəşəriyyətə qarşı tarixi cinayət" mövzusunda baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müavinləri və psixoloqlarının, uşaq birliyi təşkilatları rəhbərlərinin, ictimaiyyət nümayəndələri və gənclərin iştirakı ilə keçirilən tədbirlərdə milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolundan, uşaqların milli-mənəvi dəyərlər və Azərbaycançılıq ruhunda tərbiyə edilməsinin, vətənpərvər gənclər kimi formalaşmalarının əhəmiyyətindən danışılıb.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

**"Masallı şəhəri Ərkivan qəsəbəsi "Qızlaküçə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 09 aprel 2018-ci il
Qeydiyyat №-si: 100118C-786

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rzayev İdris Rzali oğlu, Həşimov Nizam Yağub oğlu, Qənbərov Afit Allahqulu oğlu, Səmədov Müqəddəs Güləli oğlu, Yunusov Hüseynqulu Rəşid oğlu, Ağayev Həsən Müzəffər oğlu, Qənbərov Şirəli Məmmədəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Abbasov Vilayət Şaban oğlu, Səmədov Şalı Ağalar oğlu, Abbasov Rahid Şaban oğlu, Ağayev Mirzəcan İsrafil oğlu, Ağayev Samir İskəndər oğlu, Səmədov Babək Səməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 fevral 2022-ci il

**"Masallı rayonu Musaküçə kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 17 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3-409

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Quliyev Bağış İsgəndər oğlu, Şahverdiyev Ağababa Əliabbas oğlu, Şahverdiyev Vəli Əkbər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Müslümov Müslüm Daşdəmir oğlu, Abıyev Surac Allahşükür oğlu, Qulamov Surəddin Qəyyum oğlu, Kazımov Mircavad Kazım oğlu, Fəttayev Mirdaməd Kazım oğlu, Hüseynov Həsən Zəki oğlu, Abbaszadə Tərlan Soltanağa oğlu, Rzayev Rizvan Həsənağa oğlu, Həsənov İlfaq Şahverdi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 fevral 2022-ci il

**"Masallı rayonu Qəzvinoba kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 24 noyabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2-29

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qəribov Zabit Yusif oğlu, Ağayev Musa Dadaş oğlu, Bayramov Şarab Şamil oğlu, Əliyev Xanhüseyn Piralı oğlu, Həmidov Surət Mikayıl oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Muradov Ceyhun Dünyami oğlu, Nəcəfov Seyfəddin Nəsrəddin oğlu, Mustafayev Bədrəddin Ağababa oğlu, Mehdiyev Samir Şıxəli oğlu, Mehdiyev Aqil Şahalı oğlu, Ağayev Cəbrayıl Cəbrayıl oğlu, Cavadov Cahid Əfqan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Qəribov Zabit Yusif oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Mehdiyev Aqil Şahalı oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdır.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 fevral 2022-ci il

**"Şamaxı rayonu II Cabanı kəndi "Cümə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 10 avqust 2010-cu il
Qeydiyyat №-si: 100110A4-471

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Şarifov Binali Aydın oğlu, Rasulov Mukat Saxanbar oğlu, Usmanov Muxamməd Sərdal oğlu, Şarifov Murad Binali oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Həmidov Seymur Səmid oğlu, Tarıverdiyev Paşa Xəlgülla oğlu, Ömərov Süleyman Yolçu oğlu, Əliyev Abuzər Səristan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 fevral 2022-ci il

**"Bakı şəhəri Yasamal rayonu "Hacı Soltanəli - 1" məscidi" dini icması**

Qeydiyyat tarixi: 24 avqust 2010-cu il
Qeydiyyat №-si: 100110A4-480

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Mirrasim Mirqədir oğlu, Əliyev Rafiq Adil oğlu, Mirzəyev Rüstəm Hüseynəli oğlu, Əliyev Nadir Qərbəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Dadaşov Üzeyir Balağa oğlu, Rzayev Əbdüləli Oqtay oğlu, Əliyev Namiq Azad oğlu, Verdiyev İntiqam Seyfulla oğlu, İbrahimxəlilov Anar Rasim oğlu, Niftalıyev Zaur Nadir oğlu, Səfərəliyev Səyyad Səfərəli oğlu, Şahbazov Rüstəm Əflatin oğlu, Nuriyev Rauf Əliağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Məmmədov Mirrasim Mirqədir oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Yarıyev İbrahim Cahangir oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdır.

Dəyişikliklərin qeydiyyat tarixi: 14 mart 2022-ci il

**"Saatlı rayonu Dəllər kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 29 noyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-867

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məhərrəmov Yusif Xanbaba oğlu, Cəlilov Qaraxan Qurban oğlu, Dövlətov Rizvan Ənnağı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Zeynalov Təvəkkül Namiq oğlu, Məhərrəmov Mahir Yusif oğlu, Kərəmov İslam Malik oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 16 mart 2022-ci il

**"Saatlı rayonu Qazanbatan kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 09 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3-396

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Dursunov Qoçəli Məndif oğlu, Dursunov Rahib Dəmirəli oğlu, Heydərov Kamal Nəbi oğlu, Xəlilov Bəxtiyar Əhmədcanoviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Fayiqov Güləli Binəli oğlu, Faiqov Şahalı Güləli oğlu, Məmiyev Arif Mansır oğlu, Laçınov Rüstəm Şərafəddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 16 mart 2022-ci il

**"Hacıqabul rayonu Rəncbər kəndi "Cümə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 19 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1-229

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cavadov Əlitağı Teyyub oğlu, Məmmədov Mikayıl Şirinbala oğlu, Xankişiyev Nəsir Qara oğlu, Rəhimov Məmmədəli Ağarza oğlu, Dadaşov Zülfüqar Xanəli oğlu, Hüseynov Sahib İskəndər oğlu, Həsənov Heybət Səbziəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Cavadov Teyyub Əlitağı oğlu, İbrahimov Fikrət Hacıbala oğlu, Hüseynov Anar Əlihüseyn oğlu, İbrahimov Əzim Ziyadxan oğlu, İbrahimov Emin Mübariz oğlu, Qurbanov Namiq Həsən oğlu, Rəhimov Abdul Mikayıl oğlu, Rəhimov Vüqar Məmmədəli oğlu, İsmayılov Xeyrulla Əliseyran oğlu, Hüseynov Qəhrəman Əbülfəz oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Cavadov Əlitağı Teyyub oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Cavadov Teyyub Əlitağı oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdır.

Dəyişikliklərin qeydiyyat tarixi: 16 mart 2022-ci il

**"Saatlı rayonu Şirinbəy kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 07 may 2010-cu il
Qeydiyyat №-si: 100110A2-341

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Vezirov Javri Javdatoviç, Məmmədov Abbas Zaiddin oğlu, Əşrəfov Pazlidin Sədrəddin oğlu, Ömərova Sayarxon Vaxidinovna dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Aslanov Vəlid Xəlid oğlu, Mahmudov Mehralı Rza oğlu, Xəlilov Mühiddin Süfi oğlu, Bədirova Səmirə Dilavər qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 16 mart 2022-ci il

**"Masallı rayonu Bağıroba kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 12 iyul 2010-cu il
Qeydiyyat №-si: 100110A3-427

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Kişiyev Ağarza Əliağa oğlu, Aslanov Nizami Məhərrəm oğlu, Fərziyev Məhərrəm İsa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Kişiyev Güləriza Əliağa oğlu, Qurbanov Elsevər Balağa oğlu, Aslanov Pərvin Nizami oğlu, Kişiyev Nahid Ağarza oğlu, Sadıqov Asəf Elxan oğlu, Əliyev Səfail Vaqif oğlu, Şirvanzadə Nurlan Rahiz oğlu, Rəsulov Nazim Eynali oğlu, Qurbanov Rafail Balağa oğlu, Bağırov Əhliman Şövlət oğlu, Aslanov İftixar Məhərrəm oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Sadıqov Ehtibar Dövlət oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Dadaşov Nadir Xıdır oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdır.

Dəyişikliklərin qeydiyyat tarixi:16 mart 2022-ci il

## MÜSƏLMAN DÜNYASININ İLK QADIN DEPUTATI HAQQINDA FİLM ÇƏKİLİB

Gürcüstanda müsəlman dünyasının ilk qadın deputatı Pərixanım Sofiyeva haqqında animasiya filmi çəkilib.

Gürcüstanın "Qadınların Təşəbbüslərinə Dəstək Qrupu" Qeyri-Hökumət Təşkilatının layihəsi əsasında hazırlanan "Pərixanım Sofiyeva" adlı qısametrajlı ekran əsəri Tbilisinin "Amirani" kinoteatrında Feminist Filmləri Festivalı çərçivəsində ilk dəfə nümayiş etdirilib.

Ekran əsərinin istehsal prosesinə azərbaycanlı icmadan məsləhətçilər də cəlb olunub.

Animasiya filmi gürcü dilində (ingilis dilində altyazılarla) təqdim olunub.

Cizgi filminin Azərbaycan dilli versiyası da hazırdır və tərəfdaş təşkilatların dəstəyi ilə bu versiyanın azərbaycanlı icma üçün nümayişi də nəzərdə tutulub.

Məlumat üçün qeyd edək ki, Qardabani rayonunun Qaracalar kəndindən olan P.Sofiyeva (1884-1953) 1918-ci ildə Tiflis qəzası bələdiyyəsinə bitərəf millət vəkili seçilib. O, tarixə müsəlman dünyasının demokratik yolla seçilən ilk qadın deputatı kimi düşüb.



# CƏMİYYƏT və DİN

№ 03 (365) MART 2022-ci il


## QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ QAZILAR ŞURASININ RAMAZAN AYI İLƏ ƏLAQƏDAR FƏTVASI

*"Ramazanın fəzilətləri barədə müqəddəs Kitabımız "Qurani-Kərim"də Uca Rəbbimiz buyurur: "Ramazan ayı insanlara doğru yol göstərən, doğru yolu və haqqı batildən ayırmağı açıq-aşkar dəlillərlə bəyan edən Quranın nazil olduğu aydır. Sizdən hər kim o aya yetişsə oruc tutsun" (Bəqərə, 185). Aləmlərə rəhmət, möminlərə mərhəmət olan "Qurani-Kərim"in nazil olduğu mübarək Ramazanda müqəddəs dinimizə ehtiram nümayiş etdirməkdə, oruc ibadətimizi layiqincə tamamlamaqda bizə yardımçı olmasını Uca Rəbbimizdən raz-niyaz edirik!*

*Qazılar Şurası builki Ramazan Fətvasını dindarlarımızın nəzər-diqqətinə təqdim edir və bildirir ki, Qafqaz Müsəlmanları İdarəsinin müvafiq sorğusuna əsasən Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının hesablamalarına görə, bu il üfüqümüzdə hilalın (təzə Ayın) aprelin 1-i görünməsi Ramazan ayının 1-i miladi təqvimlə 2022-ci il aprelin 2-nə təsadüf edəcək.*

*Möhtərəm qardaş və bacılar! Artıq ikinci ildir ki, Ramazan ayına qalib xalq, Vətən və şəhadət eşqi sayəsində 30 illik işğala son qoymuş millət kimi qədəm qoyuruq. Qarabağa zəfər yürüşünün əzmlə sona çatması Rəhman və Rəhim Allahın lütfü və tarixi ədalətin bərpası oldu. Biz dindarlar Qarabağ zəfərini ərəfəsində olduğumuz Ramazani-şərifin fəzilətlərindən olan ədalətin zülm üzərində qələbəsi kimi dəyərləndirərək qazilərimizin qəhrəmanlıqlarını təqdir edir, amalı Peyğəmbər (s) və Əhli-Beyt (ə) sevgisi olan şəhidlərimizə Uca Yaradandan rəhmət diləyir, bizə bu səadəti yaşatdığına görə ordu-dövlət-xalq birliyinə güvənən müzəffər sərkərdə və Ali Baş Komandan İlham Əliyevə sonsuz dualar edirik. On bir ayın sultanı olan Ramazani-şərif duaların qəbul olunduğu aylardandır. Mübarək ayın verdiyi bu fürsətdən istifadə edərək əzəli torpaqlarımıza Böyük Qayıdışın təmin olunması, viran qoyulmuş ərazilərimizə yeni nəfəs verilməsi, Qarabağda müasir həyat şəraitinin qurulması, vandalizmə məruz qalmış dini məbədlərin, məscidlərin bərpa edilməsi istiqamətində fövqəladə zəhmətlərinə görə dövlətimizin başçısı, Zati-aliləri, Prezident İlham Əliyevə, eləcə də ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya Azərbaycan dindarları adından dərin minnətdarlığımızı bildirir, bu mübarək günlərdə onlara ən böyük İlahi nemət olan cansağlığı diləyirik.*

*Mənəviyyat və əxlaqın zənginləşməsinə vəsilə olan oruc ibadəti insanın daxili saflığına, pis vərdişlərdən uzaq durmasına, Allah yolunda xeyirxah işlər görməsinə, fiziki və mənəvi cəhətdən sağlam olmasına səbəb olur. Dövlətimiz tərəfindən verilən son qərara əsasən pandemiya sonrası dönəmdə dini tədbirlərin keçirilməsinə icazə verildiyi üçün təşəkkür edir, müvafiq qurumlara minnətdarlığımızı bildiririk.*

*Oruclluq ibadəti yardımlaşmanı artıran, daxili dəyanəti gücləndirən İlahi qüvvəyə malikdir. Mərhəmət və şəfqət ayı olan müqəddəs Ramazan ayı ərzində iftar süfrələri açmaq, yardım və xeyriyyəçilik etmək, ehtiyacı olanlara, kimsəsiz insanlara, uşaq evlərinə, ahıl və qocalara imkan daxilində köməklik göstərmək Allah nəzərində bəyənilən əməllərdəndir. Quran tilavəti, valideynlərin qayğısına qalmaq, dünyasını dəyişənlərin ruhlarını yad etmək, elm-irfan və ibadətlə məşğul olmaq bu ayda ən böyük savabdır. Tövsiyə edirik ki, bu mübarək günlərdə torpaqlarımız, Vətənimiz uğrunda canlarını fəda edən qəhrəman şəhidlərin xatirəsi yad edilsin, ruhlarına dualar oxunsun, şəhid və qazi ailələrinə qayğı və diqqət göstərilsin. Qazılar Şurası din xadimlərimizin və yerlərdəki imamlarımızın nəzərinə çatdırır ki, Ramazanın vacibatları, qayda və qadağaları, müstəhəb əməlləri barədə dindarlara ətraflı şəkildə məlumatlar və şərhlər verilməlidir.*

*Hər il olduğu kimi, bu il də Qafqaz Müsəlmanları İdarəsi mübarək Ramazan ayının gündəlik duaları, imsak-iftar vaxtlarını əks etdirən xüsusi təqvim tərtib etmişdir. Bu təqvim İdarəmizin internet saytında (www.qafqazislam.com) yerləşdirilmişdir. Biz xalqımıza təqvimin internet versiyasından istifadəni tövsiyə edirik. Digər mənbələrdən daxil olmuş, təfriqə xarakterli, məzhəb və vaxt ayrı-seçkiliyinə səbəb ola biləcək təqvimlərin din xadimləri və dindarlar tərəfindən istifadəsi qeyri-məqbuldur. Bütün kütləvi informasiya vasitələrindən məhz QMİ-nin təqviminə istinad etmələri xahiş olunur.*

*Oruc ibadətinin mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günüdür. Qazılar Şurasının qənaətinə görə, adambaşına 10-15 manat fitrə zəkatının verilməsi məsləhət görülür. Fitrə canın sədəqəsidir və imkanı olan müsəlmanın ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarması, imkansızlara, ehtiyacı olan ailələrə verməsi vacibdir.*

*İnşallah, Eydül-Fitr – Ramazan bayramının Şəvval ayının 1-i Ayın üfüqi ərazimizdə görünməsindən asılı olaraq may ayının 2-nə təsadüf etməsi gözlənilir. Oruclluq dönəmində ixlas və sədaqətlərini nümayiş etdirən Azərbaycan dindarları Prezident İlham Əliyevin, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dövlətçiliyimizin uğurları naminə fədakar fəaliyyətini, dövlətimizin və hökumətimizin misilsiz səylərini yüksək dəyərləndirir, müqəddəs Ramazan ayında ali dövlət rəhbərlərimizə və onların ailə üzvlərinə Uca Allahdan sonsuz xeyir-dualar diləyirlər.*

*Qadir Allah doğma Azərbaycanımızı qorusun, bütün bəlalardan hifz etsin, rifah və tərəqqimizə rəvac versin! Allah oruc və namazlarımızı qəbul etsin, bizləri məğfirət və mərhəmətinə nail olan bəndələrindən qərar versin. Amin!"*

**QEYD:** ***Hörmətli oxucular, qəzetimizin yanvar sayı texniki səbəblərdən çap edilmədiyindən həmin saydakı bəzi məqalələr bu sayımızda dərc olunmuşdur.***

Ya əliyyu ya əzim, ya ğafuru ya rəhim, əntər-rəbbul-əzim, əlləzi ləysə kəmislihi şəy və huvəs-səmiul-bəsir, və haza şəhrun əzzəmtəhu və kərrəmtəhu və şərrəftəhu və fəzzəltəhu ələş-şuhur, və huvəş-şəhrul-ləzi fərəztə siyaməhu ələyyə və huvə şəhru ramazan əlləzi ənzəltə fihil-quran, hudəl-linnasi və bəyyinatin minəl-huda vəl-furqan, və cəəltə fihi ləylətəl-qədr, və cəəltəha xəyrən min əlfi şəhr, fəya-zəl mənni və la yumənnu ələykə munnə ələyyə bifəkaki rəqəbəti minən-nar, fi mən təmunnu ələyhi və ədxilnil-cənnəh, birəhmətikə ya ərhəmər-rahimin.

**Bismillahir Rəhmanir Rəhim**

Allahummə ləkə sumtu və bikə aməntu və ələykə təvəkkəltu və əla rizqikə əftərtu və saumətl-ğədi min şəhri Ramazanə nəvəytu, fəğfirli ma qəddəmtu və ma əxxərtu.

Allahummə ədxil əla əhlil-quburis-surur, Allahummə əğni kullə fəqir, Allahummə əşb'i kullə ca'i, Allahumməksu kullə uryan, Allahumməqzi dəynə kulli mədin, Allahummə fərric ən kulli məkrub, Allahummə ruddə kullə ğərib, Allahummə fukkə kullə əsir, Allahummə əslih kullə fasidin min umuril-muslimin, Allahumməşfi kullə məriz, Allahummə suddə fəqrəna biğinak, Allahummə ğəyyir suə halina bihusni halik, Allahumməqzi ənnəd-dəynə və əğnina minəl-fəqr, innəkə əla kulli şəyin qədir.

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ



2022 - 1443

### RAMAZAN AYININ TƏQVİMİ

Bakı

| Həftənin günləri | Hicri ayı | Miladi ayı | İmsak vaxtı | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Gün batır | Məğrib azanı | İşa azanı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Şənbə | 01 Ramazan | 02 Aprel | 04:56 | 05:01 | 06:24 | 12:44 | 17:14 | 19:05 | 19:20 | 20:22 |
| Bazar | 02 Ramazan | 03 Aprel | 04:55 | 05:00 | 06:22 | 12:44 | 17:15 | 19:07 | 19:21 | 20:24 |
| Bazar ertəsi | 03 Ramazan | 04 Aprel | 04:53 | 04:58 | 06:20 | 12:44 | 17:16 | 19:08 | 19:22 | 20:25 |
| Çərşənbə axş. | 04 Ramazan | 05 Aprel | 04:51 | 04:56 | 06:19 | 12:44 | 17:16 | 19:09 | 19:23 | 20:26 |
| Çərşənbə | 05 Ramazan | 06 Aprel | 04:49 | 04:54 | 06:17 | 12:43 | 17:17 | 19:10 | 19:24 | 20:27 |
| Cümə axş. | 06 Ramazan | 07 Aprel | 04:47 | 04:52 | 06:16 | 12:43 | 17:18 | 19:11 | 19:25 | 20:28 |
| Cümə | 07 Ramazan | 08 Aprel | 04:46 | 04:51 | 06:14 | 12:43 | 17:18 | 19:12 | 19:26 | 20:30 |
| Şənbə | 08 Ramazan | 09 Aprel | 04:44 | 04:49 | 06:12 | 12:42 | 17:19 | 19:13 | 19:27 | 20:31 |
| Bazar | 09 Ramazan | 10 Aprel | 04:42 | 04:47 | 06:11 | 12:42 | 17:20 | 19:14 | 19:28 | 20:32 |
| Bazar ertəsi | 10 Ramazan | 11 Aprel | 04:40 | 04:45 | 06:09 | 12:42 | 17:20 | 19:15 | 19:29 | 20:33 |
| Çərşənbə axş. | 11 Ramazan | 12 Aprel | 04:38 | 04:43 | 06:08 | 12:42 | 17:21 | 19:16 | 19:30 | 20:35 |
| Çərşənbə | 12 Ramazan | 13 Aprel | 04:36 | 04:41 | 06:06 | 12:41 | 17:22 | 19:17 | 19:31 | 20:36 |
| Cümə axş. | 13 Ramazan | 14 Aprel | 04:35 | 04:40 | 06:05 | 12:41 | 17:22 | 19:18 | 19:32 | 20:37 |
| Cümə | 14 Ramazan | 15 Aprel | 04:33 | 04:38 | 06:03 | 12:41 | 17:23 | 19:19 | 19:33 | 20:39 |
| Şənbə | 15 Ramazan | 16 Aprel | 04:31 | 04:36 | 06:02 | 12:41 | 17:23 | 19:20 | 19:34 | 20:40 |
| Bazar | 16 Ramazan | 17 Aprel | 04:29 | 04:34 | 06:00 | 12:40 | 17:24 | 19:21 | 19:36 | 20:41 |
| Bazar ertəsi | 17 Ramazan | 18 Aprel | 04:27 | 04:32 | 05:59 | 12:40 | 17:25 | 19:22 | 19:37 | 20:42 |
| Çərşənbə axş. | 18 Ramazan | 19 Aprel | 04:26 | 04:31 | 05:57 | 12:40 | 17:25 | 19:23 | 19:38 | 20:44 |
| Çərşənbə | 19 Ramazan | 20 Aprel | 04:24 | 04:29 | 05:56 | 12:40 | 17:26 | 19:24 | 19:39 | 20:45 |
| Cümə axş. | 20 Ramazan | 21 Aprel | 04:22 | 04:27 | 05:54 | 12:39 | 17:27 | 19:25 | 19:40 | 20:46 |
| Cümə | 21 Ramazan | 22 Aprel | 04:20 | 04:25 | 05:53 | 12:39 | 17:27 | 19:26 | 19:41 | 20:48 |
| Şənbə | 22 Ramazan | 23 Aprel | 04:19 | 04:24 | 05:51 | 12:39 | 17:28 | 19:27 | 19:42 | 20:49 |
| Bazar | 23 Ramazan | 24 Aprel | 04:17 | 04:22 | 05:50 | 12:39 | 17:28 | 19:28 | 19:43 | 20:50 |
| Bazar ertəsi | 24 Ramazan | 25 Aprel | 04:15 | 04:20 | 05:49 | 12:39 | 17:29 | 19:29 | 19:44 | 20:52 |
| Çərşənbə axş. | 25 Ramazan | 26 Aprel | 04:13 | 04:18 | 05:47 | 12:39 | 17:30 | 19:30 | 19:45 | 20:53 |
| Çərşənbə | 26 Ramazan | 27 Aprel | 04:12 | 04:17 | 05:46 | 12:38 | 17:30 | 19:31 | 19:46 | 20:55 |
| Cümə axş. | 27 Ramazan | 28 Aprel | 04:10 | 04:15 | 05:44 | 12:38 | 17:31 | 19:32 | 19:47 | 20:56 |
| Cümə | 28 Ramazan | 29 Aprel | 04:08 | 04:13 | 05:43 | 12:38 | 17:31 | 19:33 | 19:48 | 20:57 |
| Şənbə | 29 Ramazan | 30 Aprel | 04:07 | 04:12 | 05:42 | 12:38 | 17:32 | 19:34 | 19:50 | 20:59 |
| Bazar | 30 Ramazan | 01 May | 04:05 | 04:10 | 05:41 | 12:38 | 17:33 | 19:35 | 19:51 | 21:00 |

**Rayonların dəqiqə fərqi:** Ağdam-Bərdə-Füzuli-Oğuz-Qax-Mingəçevir-Yevlax +11, Ağdaş-Ağcabədi-Beyləqan +10, Ağstafa-Babək-Culfa +18, Astara-Salyan-Şirvan-Qusar-Şabran-Xaçmaz +4, Balakən-Qubadlı-Şuşa +1[illegible], Cəlilabad-Saatlı-Sabirabad-Kürdəmir-Şamaxı-İsmayıllı +6, Gəncə-Göygöl-Laçın +14, İmişli-Lerik +7, Kəlbəcər-Daşkəsən-Şəmkir-Zaqatala-Zəngilan +15, Qazax +19, Qəbələ-Göyçay-Ucar-Yardımlı +8, Lənkəran-Masallı-Biləsuvar-Quba +5, Naxçıvan-Şahbuz-Şərur +18, Neftçala-Siyəzən-Qobustan +3, Sumqayıt +1, Şəki-Tərtər-Göranboy-Cəbrayıl +12, Tovuz-Gədəbəy-Ordubad +16, Zərdab +9

**Şəvval ayının 1-i (02 may) Fitr (Ramazan) bayramıdır.**

### RAMAZAN AYININ GÜNDƏLİK DUALARI

**Oruc niyyəti: Ramazan ayının orucunu tuturam qürbətən iləllah.**

**İftardan qabaq oxunan dua:** İlahi, Sənin üçün oruc tutdum. Verdiyin ruzi ilə iftarımı açıram və Sənə təvəkkül edirəm. Orucumu qəbul et. Həqiqətən, Sən duaları eşidən və hər şeyi bilənsən. Ey geniş məğfirət Sahibi, günahlarımı bağışla!

**1-ci gün:** İlahi, mənim orucumu oruc tutanların orucundan, namazımı gecə-gündüz namaz qılanların namazından hesab et, məni qəflət yuxusundan oyat, bu ayda günahımı bağışla, ey Aləmlərin Rəbbi, məni əfv et, ey günahkarları əfv edən Allah!

**2-ci gün:** İlahi, məni bu ayda Öz rizana yaxınlaşdır, qəzəbindən və cəzalarından uzaq et. Ey Rəhimlilərin Rəhimlisi, məni bu ayda Öz ayələrini oxumağa müvəffəq et!

**3-cü gün:** İlahi, bu ayda mənə güclü ağıl və ayıq-sayıqlıq ver, pis şeylərdən və qafillikdən uzaq et. Ey Səxavətlilərin Səxavətlisi, Öz səxavətin xatirinə bu ayda nazil etdiyin hər xeyirdən mənim də nəsibimi ver!

**4-cü gün:** İlahi, bu ayda mənə Sənin (oruc tutmaq barədə) əmrini yerinə yetirməyə qüvvət ver, Səni zikr etməyin şirinliyini mənə daddır, səxavətinə görə Sənə şükr etməyə məni ruhlandır, məni bu ayda Özün hifz et və qoru, ey bəsirətlə nəzər edən Allah!

**5-ci gün:** İlahi, bu ayda məni günahlarının bağışlanmasını istəyənlərdən qərar ver, Öz saleh və itaətkar bəndələrindən, Özünə yaxınlaşdırdığın dostlarından et, mehribanlığın xatirinə, ey mərhəmətlilərin Mərhəmətlisi!

**6-cı gün:** İlahi, bu ayda məni Sənə asiliyə məruz qoymaqla rüsvay etmə, Öz cəza qamçınla məni vurma, Öz lütfün və köməyin sayəsində Sənin qəzəbini doğuracaq şeylərdən bu ayda məni uzaq et, ey rəğbət bəsləyənlərin Rəğbətlisi!

**7-ci gün:** İlahi, bu ayın orucunu tutmaqda və namazını qılmaqda mənə kömək ol, məni səhvlərdən və günahlardan uzaqlaşdır. Bütün bu ayı Səni zikr etməyi mənə qismət et, Öz köməyin sayəsində, ey azmışları doğru yola çıxaran Allah!

**8-ci gün:** İlahi, bu ayda mənə yetimlərə münasibətdə mərhəmətli olmağı, çörək verməyi, sülhpərvər olmağı, hörmətli adamlarla oturub-durmağı qismət elə, Öz qüdrətin sayəsində, ey ümid edənlərin Pənahı!

**9-cu gün:** İlahi, bu ayda mənə Öz geniş mərhəmətindən pay ver, Öz açıq-aşkar dəlil-sübutlarınla yol göstər, Səni razı salacaq bütün şeylərə doğru məni apar, Öz məhəbbətin xatirinə, ey arzusu olanların Pənahı!

**10-cu gün:** İlahi, bu ayda məni Öz həsənatlarının sayəsində Sənə təvəkkül edənlərdən, Sənin yanında bu ayda uğur qazananlardan və Özünə yaxınlardan qərar ver, Öz yaxşılığınla ey istək sahiblərinin son Qayəsi!

**11-ci gün:** İlahi, bu ayda mənə Öz köməyin sayəsində yaxşılıq etməyi sevdir, məndə bu ayda pisliyə və asiliyə ikrah doğur, qəzəbini və Cəhənnəm odunu məndən uzaq et, ey xilas olmaq istəyənlərin Xilaskarı!

**12-ci gün:** İlahi, bu ayda məni həya və iffətlə zinətləndir, itaət və razılıq libasını geyindir. Bu ayda məni ədalət və insaf yolu ilə apar, qorxduğum hər şeydən məni hifz et. Səni Öz ismətinə and verirəm ey (ürəklərində) Allah qorxusu olanların Himayədarı!

**13-cü gün:** İlahi, bu ayda məni natəmizlik və iyrənc şeylərdən pak et, alın yazısı ilə məni bu ayda olacaqlara səbirli et, və Öz köməyinlə məni bu ayda təqvaya və əməlisaleh insanlarla dostluğa müvəffəq et, ey miskinlərin gözlərinin işığı Allah!

**14-cü gün:** İlahi, bu ayda səhvlərimi mənə irad tutma, məni səhvlərdən və büdrəmələrdən qoru, bəla və dərdlərə düçar etmə, and verirəm izzətinə ey müsəlmanların İzzəti, Şərəfi olan Allah!

**15-ci gün:** İlahi, mənə bu ayda təqvalı olanların itaətini bəxş et, qəlbimi bu ayda itaət edənlərə məxsus tövbə üçün geniş aç. Sən özün aman ver, ey ürəklərində Allah qorxusu olanların ümidgahı!

**16-cı gün:** İlahi, bu ayda məni əməlisaleh adamlarla rastlaşmağa müvəffəq et, və məni şər adamlarla rastlaşmaqdan uzaq et, Öz rəhmətinlə mənə bu ayın xatirinə axirətdə qərar evində sığınacaq ver, Allahlığın xatirinə ey aləmlərin Rəbbi!

**17-ci gün:** İlahi, mənə bu ayda saleh əməllərə doğru yol göstər, ehtiyac və amallarımı yerinə yetir, ey etdikləri barədə izaha və suala ehtiyacı olmayan, ey aləmlərin batinində olanları bilən! Mühəmmədə (s) və onun pak ailəsinə salavat və rəhmət bəxş et!

**18-ci gün:** İlahi, məni bu ayda Öz səhərlərinin bərəkəti üçün oyat, qəlbimi Öz işıqlarının ziyası ilə nurlandır, bütün əzalarımı o nurun ziyasında sabit qıl. Səni öz nuruna and verirəm, ey ariflərin qəlblərini işıqlandıran Allah!

**19-cu gün:** İlahi, bu ayın bərəkətindən nəsibimi bol et, mənim yolumu xeyir-bərəkətlərinə doğru asanlaşdır, və məni Öz yaxşılıqlarını qəbul etməkdən məhrum etmə, ey açıq-aşkar haqqa hidayət edən Allah!

**20-cu gün:** İlahi, bu ayda mənim üçün Cənnət qapılarını aç, Cəhənnəm qapılarını bağla, məni bu ayda Quran oxumağa müvəffəq et, ey möminlərin qəlblərinə rahatlıq salan Allah!

**21-ci gün:** İlahi, bu ayda Sənin rizanı qazanmaq üçün mənə yol göstər, Şeytanın məni azdırması üçün yol qoyma, Cənnəti mənim üçün mənzil və dinclik yeri qərar ver, ey möhtac olanların ehtiyaclarını ödəyən Allah!

**22-ci gün:** İlahi, bu ayda fəzilət qapılarını üzümə aç, mənə Öz bərəkətlərini nazil et, məni bu ayda Sənin razılığına səbəb olacaq işlərə müvəffəq et, Öz cənnətlərinin ən gözəl guşələrində sakin et, ey ehtiyac içində olanların dualarını müstəcab edən Allah!

**23-cü gün:** İlahi, bu ayda mənim günahlarımı yu (pak et), məni eyiblərdən təmizlə, qəlbimi ürəklərdəki təqva qorxusu ilə imtahana çək, ey günahkarların büdrəmələrini bağışlayan Allah!

**24-cü gün:** İlahi, bu ayda Səndən Səni razı salacaq şeyləri diləyirəm, Səni incidəcək şeylərdən Sənə pənah gətirirəm. Bu ayda məni Sənə itaət etməyə, Sənə asilik etməməyə müvəffəq etməyini diləyirəm, ey diləyənlərə səxavət göstərən Allah!

**25-ci gün:** İlahi, bu ayda məni Sənin dostlarını sevən, düşmənlərinə düşmən olan və Peyğəmbərlərinin sonuncusunun yolu ilə gedənlərdən qərar ver, ey Peyğəmbərlərin qəlblərini məsum qılan Allah!

**26-cı gün:** İlahi, bu ayda mənim səylərimi mükafata layiq qıl, günahlarımı bağışla, əməllərimi məqbul, eyiblərimi üstü örtülmüş qərar ver, ey eşidənlərin Eşidəni!

**27-ci gün:** İlahi, bu ayda mənə Qədr gecəsinin fəzilətini əta et, çətin işlərimi asanlaşdır, üzrlərimi qəbul et, günahları və günah yükünü üstümdən götür, ey Öz saleh bəndələrinə mehriban olan Allah!

**28-ci gün:** İlahi, bu ayda nafilə əməllərdən mənim nəsibimi bol et, Qiyamət günü suallarına hazır olmaq üçün mənə lütf göstər, vəsilələr arasında sənə yetişmək üçün vəsiləmi bu ayda yaxın et, ey israrlıların dualarını eşitməkdə məmnun olan Allah!

**29-cu gün:** İlahi, məni bu ayda Öz rəhmətinlə əhatə et, mənə müvəffəqiyyət və ismət müyəssər et, qəlbimi töhmət zülmətlərindən pak et, ey Öz mömin bəndələrinə mehribanlıq göstərən Allah!

**30-cu gün:** İlahi, Ağamız Mühəmməd və onun pak ailəsi xatirinə bu aydakı orucumu Sənin və Peyğəmbərinin razı qaldığı şəkildə qəbul et! Dinimizin e'tiqad təməllərini möhkəm qərar ver. Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur!

**QEYD**

**Ramazan ayının 10-da** Həzrət Xədicənin (ə) vəfatı
**Ramazan ayının 15-də** Həzrət İmam Həsənin (ə) mövludu
**Ramazan ayının 18-dən 19-na keçən gecə Əhya gecəsi (Qədr gecəsi)**
**Ramazan ayının 19-da** Həzrət Əlinin (ə) yaralanması
**Ramazan ayının 20-dən 21-nə keçən gecə Əhya gecəsi (Qədr gecəsi)**
**Ramazan ayının 21-də** Həzrət Əlinin (ə) vəfatıdır
**Ramazan ayının 22-dən 23-nə keçən gecə Əhya gecəsi (Qədr gecəsi)**
**Ramazan ayının 26-dan 27-nə keçən gecə Əhya gecəsi (Qədr gecəsi)**

**PEYĞƏMBƏRİMİZİN (S) ORUCLA BAĞLI MÜBARƏK SÖZLƏRİNDƏN**

- Oruc tutun, sağlam olun.
- Uca Allah buyurur: Oruc Mənim üçündür, onun mükafatını Mən verəcəyəm.
- Oruclunun sükutu zikr, yuxusu ibadət, duası məqbul əməllərin savabı kimi qiymətləndirilir.
- Oruc səbrin yarısıdır.
- Ümmətim Ramazanın xeyrini və yüksək şərəfini bilmiş olsaydı bütün ilin Ramazan olmasını arzu edərdi.

www.qafqazislam.com


Baş redaktor Səyyad ARAN

**Redaksiya şurası:** Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**

Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51; Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70; Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40; Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97; Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84; Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95; Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59; Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00; Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30; Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23; İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894